33_27 IYUl-QARA.qxd 9/26/2024 10:06 PM Page 1

UNİKAL

№35 (2217) 27 sentyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Prezidentdan mühüm iqtisadi mesajlar: Müşavirədə yeni hədəflər qoyuldu



Səh.3



## Elman Rüstəmovun böyük çöküşü

*Uzun illərdir Mərkəzi Bankın (AMB) sabiq sədri Elman Rüstəmovun biznes imperiyasının tərkib hissəsi kimi təqdim edilən "Səba" ASC də ciddi maliyyə problemlərinin yarandığına dair ehtimallar özünü doğrultmağa başlayır. Belə ki, sirkətin səhmdarlarının oktyabrın 28- i tarixinə təyin edilmiş növbədənkənar ümumi yığıncağının gündəliyinə ASC-nin aktivlərinin bir hissəsinin satılması məsələsi salınıb. Bu günlərdə "Azpolitika.info"da yayılan məlumata görə, İdarə Heyətinin qərarında yığıncağın gündəliyinə törəmə şirkətlərdəki "Səba" ASC-yə məxsus payların satılması da daxil edilib.Ümumi yığıncağın gündəliyinə daxil edilən məsələlər arasında...*

Səh.8

## "Ermənistan Azərbaycana qarşı məkirli siyasət aparır"



*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin yeddinci çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı qeyd etdiyi məsələlərlə bağlı fikirlərindən, hərbi gücümüzün artırılmasından...*

Səh.4

## Bakı və İrəvan Sülh Sazişinin qısa müddətdə yekunlaşdırılması səyləri ilə bağlı razılığa gəldi



*Azərbaycan və Ermənistan sülhlə bağlı Sazişin yekunlaşdırılması üçün əlavə səylərin göstərilməsi barədə razılığa gəliblər. "Unikal" xəbər verir ki, bu barədə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında ABŞ dövlət katibi Antoni Blinkenin...*

Səh.2

## Rüfət Quliyev mandatdan sonra şirkətini də itirə bilər



*Tütün məhsulları istehsal edən "European Tobacco-Baku" Açıq Səhmdar Cəmiyyəti (ASC) məhkəməyə verilib. Bu günlərdə yayılan məlumatda bildirilirdi ki, iddiaçı İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Komitəsidir. Məhkəmə çəkişməsi icarə müqaviləsi üzrə mübahisələrlə bağlıdır.*

Səh.6

33_27 IYUl-QARA.qxd 9/26/2024 10:08 PM Page 2



# Ayan şəxsi həyatından danışdı: "Gözəl ailəm var"



***Müğənni Ayan Babakiyeva duet ortağı Nadir Qafarzadə ilə haqlarında gəzən söz-söhbətə cavab verib.***

”Həmin Zaur” verilişində qonaq olan Qafarzadənin ”Haqqımızda haqsız danışırlar. Günahdır. Müsəlmanıq, amma insanların haqqına giririk. Müsəlmanın ”m”sı bizdə yoxdur. Ayandan az qalıram uzaq qaçım” sözləri Ayanı əsəbiləşdirib.

A.Babakişiyeva Nadirin sözlərini kəsərək, məsələyə belə aydınlıq gətirib: ”Kim özünü müdafiə edirsə, deməli, başqa mövzuya yönlənirik. Kim nə istəyir düşünsün. Nadirin mənə, mənim ona olan münasibətimizi çevrəmiz bilir. Nadirin çox gözəl və mənim gözəl ailəm var. Dostluğumuz davam edir. Lazım olanda el şənliyinə, lazım olanda da konsertə bir gedirik. Səhnədə bir obraz yaradırıq”.

Qızı Selenadan söz açan ifaçı ”Son zamanlar insanlarda sanki belə bir fikir formalaşıb: kimisə övlad dünyaya gətirir, ərini əldə saxlamaq üçün, kimi öləndə onu basdırmaq üçün. Lazım deyil. Mənim birinci missiyam analıqdır. Qızımın gözəl bir ocağı olsun. Bu yaxınlarda qızımı məktəbə yola salma videosu paylaşdım. İnsanlar başladı yazmağa ki, səhər dururuq, ərimi yola salıram, nə bilim nə, niyə paylaşırsan? Kefim belə istəyir. Mən də bunları edirəm, fərq odur ki, mən məşhuram, paylaşanda xəbər olur” sözlərini deyib.

# Rəqsanənin evindən oğurluq edən tanınmış şəxs imiş



***Müğənni Rəqsanə İsmayılova Moskvadakı mənzilindən oğurluq edən şəxsin əməlini etiraf etdiyini açıqlayıb.***

“Unikal” publika.az-a istinadən xəbər verir ki, müğənni ”Bizimləsən” verilişində həmin şəxsin tanınmış adam olduğunu deyib: ”Oğurluq edən şəxsin artıq ailəsi də bilir. O, oğurluq etdiyini Azərbaycanda boynuna alıb. Artıq vəkillərimiz Azərbaycana sorğu göndəriblər. Sorğunun dövlət qurumlarına təqdim edilməsini gözləyirik. Həyatda ona təəssüflənirəm ki, niyə həmişə insanın çörəyini yeyənlər ona badalaq vururlar. Oğurluq edən şəxs çox tanınmış insandır. Onu bütün Azərbaycan tanıyır. Məndən başqa da bir çox insanlarla işləyib. Ayın 30-dək ona vaxt verirəm. Əgər sırğamı qaytarsa, onu hüquqi müstəvidə bağışlayacam və adını açıqlamayacam. Əks halda efirə çıxıb adını deyəcəm. O, sırğa ilə yanaşı qızım Yağmurun brilliant üzüyünü və həyat yoldaşımın qızıl üzüyünü də götürmüşdü. Onları mənə qaytardı. Deməli, o, sırğalarımı Moskvada lombarda qoyub. Sırğanın biri ilə pul götürüb. Digəri ilə isə başqa vaxt pul götürüb. Sırğanın birini qaytarıblar, birini isə ödəniş gecikdiyinə görə lombard satıb. Bu sırğanı özüm almamışam, hədiyyədir”.

Qeyd edək ki, Rəqsanə İsmayılovanın evindən 218 min avro dəyərində sırğası oğurlanıb.



# "Təranə zəng vurub ağlaya-ağlaya dedi ki, yanıma gəl"

***Müğənni Kərim Abasov keçmiş həyat yoldaşı, hazırda həbsdə olan prodüser Təranə Səmədovanı ziyarət edib.***

Axşam.az xəbər verir ki, bu haqda sənətçi ”Rəngarəng” proqramında deyib. O bildirib ki, yardım üçün Təranə ona zəng vurub: ”Ailəmlə istirahətdə idi, telefonuma Təranə Səmədova zəng vurdu. Götürdüm səsi açdım. Necə hönkürüb ağlaya-ağlaya danışırdı, təkəm, heç kimim yoxdur. Dedi ki, başına oyunlar açmışam, halal et. Yanıma gəlməyini istəyirəm, kömək et. Cavab verdim ki, yaxşı. Ailəm israr etdi ki, təkdir, gözü yoldadır, get.

Onun məni pis vəziyyətə qoyması içəri gedib girənə qədər davam edirdi. Allah qapısını açsın. Danışdı ki, övladlarımı görə bilmirəm. Nə edibsə, edib. Fetmişəm, yenə də gedəcəyəm. Görüş olmayıb, qoymurlar da”.

Xatırladaq ki, Təranə Səmədova və Rasim Həsənov ötən ilin fevralında həbs olunub. Onlar birgə hədə-qorxu ilə tələb etməkdə ittiham ediliblər. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə T.Səmədova 6 il, R.Həsənov isə 7 il müddətə azadlıqdan məhrum edilib.

# Elza Seyidcahan ciddi zədə aldı



***Əməkdar artist Elza Seyidcahan səhnədə yıxılıb.***

“Unikal” bildirir ki, bu barədə Lent.az-a açıqlama verən bəstəkar-müğənni bildirib ki, Space telekanalında konsert çəkilişində olarkən səhnədə ayağı libasının ətəyinə ilişib və o yerə çırpılıb.

”O konsertdə yarım saat oxudum. Növbəti dəfə libasımı dəyişib səhnəyə çıxdım. Fikirli idim. Libasımın ətəyi ayaqqabımın dabanına ilişdi, yerə çırpıldım. İsti-isti ağrını hiss etməmişəm. Mahnımı yenə oxudum. Həkimə getməyi təklif etsələr də, getmədim. ”Müsəlman ölümcül olmayana qədər həkimə getmir” deyirlər axı, mən də elə. Gəldim evə. Sinəm möhkəm ağrıyırdı. 3 gün o halda evdə gəzmişəm, nəvəmi qucağıma almışam, namaz qılmışam. Axır dözmədim ağrılara getdim həkimə, heç demə, döş qəfəsimdə sınıq var imiş, çat da var. İndi sarınıb gəzirəm. O qədər insanlar sənətimlə bağlı hücumlar edirlər, xoş olmayan sözlər deyirlər, bəd sözlərin enerjisi, bədxahlıq yıxdı məni. Şükür ki, başım, ayaqlarım zədələnmədi”, - deyə o bildirib.

# “Təkcə burun əməliyyatı etdirmişəm”

***Əməkdar artist Könül Kərimova bədənində heç bir plastik əməliyyat etdirmədiyini açıqlayıb.***

ARB telekanalında yayımlanan “Həmin Zaur” proqramının qonağı olan müğənni ona ünvanlanan sualları cavablandırıb. K.Kərimova bildirib ki, təkcə burun əməliyyatı etdirib: “Qətiyyən bədənşəkilləndirmə etdirməmişəm. Dörd dəfə burnumdan əməliyyat olunmuşam. Bu da kefimdən yox, problem var idi ona görə”.

# Elçin Cəfərov bəstələrini bu qiymətə satır

***Müğənni Elçin Cəfərov bəstələrinin qiymətini açıqlayıb.***

”Unikal” xəbər verir ki, sənətçi bu haqda ”İncə səhər” proqramında danışıb.

Elçin aktrisa Zarina Qurbanovun ”Bir mahnı da mənim üçün yaz” sözlərinə ”12 min manat” deyə, cavab verib.

33_27 IYUl-QARA.qxd 9/26/2024 10:10 PM Page 3





## "Azərbaycan qlobal problemlərin həllində dəstəyini əsirgəmir" - Nazir

***Azərbaycan qlobal problemlərin həlli, müstəmləkədən əziyyət çəkən ölkələrin, vətəndaşların hüquqlarının qorunması istiqamətində dəstəyini əsirgəmir.***

"Unikal" xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev "İqlim dəyişmələri və ədalətli keçid: həmkarlar ittifaqlarının rolu və fəaliyyətləri" mövzusunda sentyabrın 26-da Bakıda keçirilən beynəlxalq konfransda səsləndirib.

Ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə də fəal olduğunu diqqətə çatdıran M.Babayev Azərbaycanın noyabr ayında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini xatırladıb. Emissiya qazlarının miqdarının azaldılmasının Azərbaycanın 2030-cu il strategiyası üçün prioritet istiqamətlərdən olduğunu deyən nazir işğaldan azad edilmiş ərazilərin "Yaşıl enerji" zonası elan edildiyini də diqqətə çatdırıb.

## Zakir Həsənov Milli Müdafiə Universitetinə məxsus stendlə tanış oldu

***Müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakı Ekspo Mərkəzində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində Milli Müdafiə Universitetinə (MMU) və Azərbaycanın digər təhsil müəssisələrinə məxsus stendlərlə tanış olub.***




Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Müdafiə nazirinə məlumat verilib ki, MMU-nun Heydər Əliyev adına Hərbi İnstitutunun komandası Türkiyə Respublikasında keçirilən "TEKNOFEST 2024" texnologiya müsabiqəsinin seçim turlarından müvəffəqiyyətlə keçərək final mərhələsinə yüksəlib. Komanda müsabiqədə "Toratan dron ZN-44" layihəsi ilə iştirak edib.

MMU-nun stendində, həmçinin 2022-ci ildə Bakıda keçirilən "Texnofest Azərbaycan" Aerokosmik və Texnologiya festivalında "Pilotsuz Uçuş Aparatları" müsabiqəsinin "B" kateqoriyası üzrə 3-cü yerə layiq görülən Heydər Əliyev adına Hərbi İnstitutun kursantlarının hazırladığı "Xilaskar" pilotsuz uçuş aparatı da nümayiş olunub.

# Elman Rüstəmovun böyük çöküşü

## Sabiq baş bankir bir yandan şirkətlərini satır, o biri yandan 5 milyon manatlıq kredit şoku yaşayır

***Uzun illərdir Mərkəzi Bankın (AMB) sabiq sədri Elman Rüstəmovun biznes imperiyasının tərkib hissəsi kimi təqdim edilən "Səba" ASC də ciddi maliyyə problemlərinin yarandığına dair ehtimallar özünü doğrultmağa başlayır. Belə ki, sirkətin səhmdarlarının oktyabrın 28-i tarixinə təyin edilmiş növbədənkənar ümumi yığıncağının gündəliyinə ASC-nin aktivlərinin bir hissəsinin satılması məsələsi salınıb.***

Bu günlərdə "Azpolitika.info"da yayılan məlumata görə, İdarə Heyətinin qərarında yığıncağın gündəliyinə törəmə şirkətlərdəki "Səba" ASC-yə məxsus payların satılması da daxil edilib.Ümumi yığıncağın gündəliyinə daxil edilən məsələlər arasında aşağıdakılar diqqət çəkir: "Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-yə kredit öhdəliyinin ötürülməsinə dair əqd barədə; "Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-yə məxsus əmlakın ipoteka ilə yüklü edilməsinə dair əqd barədə; "Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Chicken Pro." MMC-nin nizamnamə kapitalındakı "Səba" ASC-yə məxsus payların satılmasına dair əqd barədə; "Səba" ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Qarabağ Taxıl" MMC-nin birgə təsisçiliyi ilə yaradılmış "Qarabağ Toxum" MMC-nin nizamnamə kapitalındakı "Qarabağ Taxıl" MMC-yə məxsus payların satılmasına dair əqd barədə; "Səba" ASC-nin birgə təsisçiliyi ilə yaradılmış "Biləsuvar Aqro" MMC-nin nizamnamə kapitalındakı payların satılması barədə; "Səba" ASC-nin nizamnamə kapitalındakı minoritar səhmdarlara məxsus səhmlərin geri alınması barədə; "Səba" ASC-nin Nizamnaməsinin yeni redaksiyası barədə.

Xatırladaq ki, "Səba"nın aktivləri Hidayət Quliyev (37,5%), Natiq Quliyev (37,5%) və Azərbaycan İnvestisiya Holdinqinə (25%) məxsusdu. Onların Mərkəzi Bankın sabiq sədri Elman Rüstəmovun xalası oğlanları olduğu bildirilir. "Bank Respublika" ASC-nin əsas səhmdarlarından olan Natiq Quliyevin qardaşları Elçin və Namiq Quliyevlə birlikdə Elman Rüstəmovun Azərbaycanda müxtəlif sahələrə aid biznesini idarə etdikləri bildirilir. Bura Rüstəmova aid bəzi bank və şirkətlərlə yanaşı, maşın salonları, restoranlar, şadlıq evləri, quşçuluq təsərrüfatı və sair daxildir.

Qeyd edək ki, bir müddət əvvəl "Səba" ASC-nin aktivlərinin "Chicken Pro." MMC şirkəti tərəfindən alındığı xəbəri yayıldı. Nəzərə alsaq ki, "Chicken Pro." MMC şirkəti "Səba" ASC-nin törəmə şirkətidir, satışa məhz "Səba"-nın səhmlərinin çıxarıldığını ehtimal etmək olar.

Bu və yuxarıda qeyd edilənlər sabiq baş bankirin çətin maliyyə durumuna düşdüyünə dair təsəvvür yaradır. Əks halda, şirkət özünün əhəmiyyətli aktivlərini niyə satışa çıxarsın ki?!




Mərkəzi Bankın keçmiş sədri ilə bağlı gündəmdə daha bir aktual (eyni zamanda qalmaqallı!) mövzu var. Söhbət Yasamal Rayon Məhkəməsində araşdırılan 5 milyonluq kredit qalmaqalından gedir. Ölkə KİV-nin iddiasına görə, Mərkəzi Bankın keçmiş sədri Elman Rüstəmov üçün ciddi problemlər yarana bilər.

Məsələ burasındadır ki, onun şəriki, hazırda həbsdə olan Azad Nağıyevin məktubunda qalmaqalın təfərrüatları açıqlanıb və Elman Rüstəmov işin əsas fiqurantı kimi təqdim edilib. Məktubun mətnini musavat.com saytı yayıb. Məlum olur ki, Azad Nağıyev məktubu azadlıqda olarkən imzalayıb.

Elman Rüstəmovun şəriki yazıb ki, 1999-cu ildən etibarən Bakı şəhərində "Super İnşaat" MTK-nı təsis edərək tikinti fəaliyyəti ilə məşğul olub. 2004-cü ildə həmin vaxt Mərkəzi Bankın sədri olan Elman Rüstəmov tərəfindən ona ortaqlıq təklif olunub: "Elman Rüstəmov bu məqsədlə müxtəlif vaxtlarda bizə 3 milyon 900 min ABŞ dolları kredit ayırmaq təklif etmişdi. Biz də öz növbəmizdə Elman Rüstəmovun təklifini qəbul edib, onunla birgə işləməyə başladıq. Birlikdə Bakı şəhəri, Hüseyn Cavid prospektində 3 yaşayış binası inşa etdik. Elman Rüstəmovla razılaşdığımız qaydada kreditlər tərəfimizdən hissə-hissə ödənilirdi. Bütün xərclər çıxıldıqdan sonra ikimizə 3 milyon 200 min ABŞ dolları gəlir qaldı. Həmin məbləğ aramızda bərabər bölündü. Bundan əlavə, Elman Rüstəmov bizdən 3 milyon 100 min ABŞ dolları məbləğini və digər şirkətimiz olan "Aqana Servis" MMC-nin adına inşa edilmiş yaşayış binasından 2 milyon manatlıq mənzil sahəsi aldı. Beləliklə, Elman Rüstəmov məndən cəmi 3 milyon 100 min ABŞ dolları və 2 milyon manatlıq mənzil sahəsi aldı".

Baş bankirin sabiq şəriki yazıb ki, Elman Rüstəmov ondan aldığı pulları qaytarmaq məqsədilə 2013-cü ildə bizə Mərkəzi Bankın hesabından 5 milyon manat kredit ayırıb. Həmin kreditlərin 1 milyon 500 min manat hissəsini xalası oğlu Rəşadın başqa banka olan borcunu ödəyib: "Yerdə qalan məbləğin 3 milyon 500 min manat hissəsini bizə girov müqabilində versə də, həmin məbləği də onun göstərişi ilə hissə-hissə müxtəlif şəxslərə və dediyi yerlərə vermişik. Hazırda sözügedən kreditlə bağlı bizə qarşı Yasamal Rayon Məhkəməsində iddia qaldırılıb. Elman Rüstəmova dəfələrlə bizim adımıza yazdığı həmin kreditlərin bağlanmasını, mülkiyyət hüququ əsasında həyat yoldaşıma və Vahid Əliyevə məxsus qeyri-yaşayış sahələrinin girovdan azad edlməsini xahiş etsəm də, xahişlərim heç bir nəticə verməyib. Hesab edirəm ki, Elman Rüstəmov etibarımızdan sui-istifadə etməklə, bizim adımıza yazdırdığı kreditləri öz məqsədləri, habelə xalası oğlunun kreditlərini bağlamaq üçün istifadə etməsinə baxmayaraq, həmin kreditlər bizdən, məndən tələb edilir. Bu da bizə və ailəmizə böyük maddi ziyana səbəb olub. Bir neçə dəfə Elman Rüstəmov ilə şəxsən görüşmək istəsəm də, o, hər dəfə müxtəlif bəhanələrlə mənimlə görüşdən imtina edir".

Mərkəzi Bankın keçmiş rəhbəri özü haqqında bu sensasion iddialara hələlik cavab verməyib. Lakin istər 5 milyon manatlıq kredit qalmaqalı, istərsə də sabiq baş bankirə məxsus "Səba"nın yaratdığı şirkətlərdəki payının bir hisəsini müəmmalı şəkildə satması 20 il boyunca (1995-2022-ci illərdə) AMB sədri kimi mühüm post, son 2 ildə isə Baş nazirin müşaviri kimi daha çox formal vəzifə tutan Rüstəmovun böyük çöküşünün başladığını söyləməyə əsas verir. Bu prosesin hansı istiqamətdə inkişaf edəcəyini zaman göstərəcək, odur ki gözləyək...

***Sənan Mirzə***

# Ərdoğanla Paşinyanın görüşünün nəticəsi...

## Ermənistan Türkiyə ilə sərhədin açılmasını və diplomatik münasibətlərin bərpasını istəyirsə, Azərbaycanla sülh sazişi imzalamalı və Zəngəzur dəhlizinin açılmasını təmin etməlidir

***Nyu Yorkda keçirilən BMT Baş Assambleyasının 79-cü sessiyası çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş baş tutub. Ermənistan Baş nazirinin rəsmi bəyanatına əsasən, tərəflər Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesi çərçivəsində artıq atılan addımları və əldə edilmiş mövcud razılaşmaları vurğulayıblar. Türkiyə tərəfinin məlumatına görə, Prezident Ərdoğan Türkiyə ilə Ermənistan arasında ilkin şərtlər olmadan normallaşma istiqamətində əhəmiyyətli irəliləyişin əldə olunduğunu bildirib və dialoq prosesinin davam etdirilməsinə səmimi dəstəyini ifadə edib.***



Bundan əlavə Prezident Ərdoğan Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün təmin olunması və yeni dövrdə iki ölkə arasında möhkəm dostluğun qurulmasının tərəfdarı olduğunu və bunun asanlaşdırılması üçün səylərin davam etdiyini bildirib.

Ermənistan Baş naziri Nikol Paşinyan da prezident Ərdoğana Ermənistan-Azərbaycan arasında sülh danışıqları prosesinin hazırkı vəziyyəti, münasibətlərin nizamlanmasına dair sazişi imzalamağa hazırlığı, həmçinin Ermənistan hökumətinin "Sülh yollarının kəsişməsi" təşəbbüsü barədə məlumat verib.

Paşinyanın Ərdoğanla görüşməsi və ondan Türkiyə prezidentinin müəllifi olduğu kitabı hədiyyə alması düzgün addımdır. Bunu Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan jurnalistlərə bildirib. Nazir qeyd edib ki, hakimiyyət tərəfindən atılan bütün addımlar regionda sülhün bərqərar olmasına və iqtisadi rifahın təmin olunmasına yönəlib: "Bəs siz nə təklif edirsiniz? Yəni Ermənistan qonşuları ilə diplomatik münasibətlər qurmasın və öz siyasəti ilə yeni problemlər, düşmənçilik yaratsın?". Papoyan keçmiş hakimiyyəti Ermənistanı bütün iqtisadi nəticələrlə birlikdə 30 il blokada və təcrid şəraitində saxlamaqda ittiham edib.

Politoloq Elxan Şahinoğlu deyib ki, Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Nyu-Yorkda Ermənistanın baş naziri Nikol Paşinyanla görüşünü müsbət qiymətləndirmək olar. "Birincisi, Ərdoğan Paşinyanı ayağına gətirib, görüş BMT binasının yanındakı Türk Evində keçirilib. Ərdoğanın Paşinyana təqdim etdiyi "Daha ədalətli dünya mümkündür" kitabında Türkiyənin regional maraqları əks olunub. Paşinyan həmin kitabı oxumasa belə, həmin kitabla şəkil çəkdirməsi onun Ərdoğanın mesajını qəbul etməsi anlamına gəlir. İkincisi, Ərdoğan bu görüşdə Paşinyana bir daha anladıb ki, Ermənistan Türkiyə ilə sərhədin açılmasını və diplomatik münasibətlərin bərpasını istəyirsə, ilk növbədə Azərbaycanla sülh sazişi imzalamalı və Zəngəzur dəhlizinin açılmasını təmin etməlidir. Bu olmadan Türkiyə birtərəfli addım atmayacaq", - deyə E.Şahinoğlu əlavə edib.

Siyasi şərhçi Asif Nərimanlı görüş barədə fikirlərini bildirib: "Nyu-Yorkda yerləşən Türk Evində Ərdoğanla görüşə gedən Paşinyana Türkiyə prezidentinin "Daha ədalətli bir dünya mümkündür" kitabı verilib. Ərdoğanın kitabını görüşdüyü liderlərə bağışlaması ənənəsi var, hərçənd, burada digər məqsəd erməni baş nazirin əliboş qayıtmaması da ola bilərdi. Çünki Paşinyan Ərdoğandan "ilkin şərt" olmadan (Azərbaycan olmadan) münasibətlərə təkan verməyi istəsə də, Ankara Bakı şərtini təkrarlayıb. Ərdoğan BMT tribunasında çıxışında da bəyan edib ki, "Bakı və İrəvan arasında münasibətlərin normallaşması Türkiyə ilə Ermənistan arasındakı əlaqələrə də təsir edəcək". Bunun BMT tribunasından elan edilməsi Ankaranı Bakının maraqlarını nəzərə almadan İrəvanla danışıqlara getməyə məcbur etmək istəyən qüvvələrə də açıq mesajdır".

Görüşü Bakıvaxtı.az-a dəyərləndirən Beynəlxalq Münasibətlər və Diplomatik Araşdırmalar Mərkəzinin rəhbəri Samir Hümbətov deyib ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması üçün başlıca şərt məlumdur. Ekspertə görə, Ankara-İrəvan münasibətlərinin normallaşma prosesinin sürətlənməsi və müsbət nəticələrin əldə olunması Ermənistan-Azərbaycan arasında gedən sülh danışıqlarının nəticəsindən asılıdır: "Türkiyə Azərbaycanın məlumatı və razılığı olmadan Ermənistanla hər hansı normallaşma addımını atmayıb və atmayacaq. İlk növbədə bu məqama diqqət çəkmək lazımdır. Türkiyə rəhbərliyi və digər rəsmilər də bunu dəfələrlə bəyan ediblər".

Müsahib qeyd edib ki, Azərbaycan və Ermənistan arasında münasibətlər normallaşmadan, sülh sazişi imzalanmadan Türkiyə-Ermənistan sərhədləri açılmayacaq: "Ankara Bakının mövqeyini sonadək müdafiə edəcək. Bu, birmənalı və prinsipial məsələdir. Türkiyə rəhbərliyi də dəfələrlə İrəvan hökumətinə çağırış edib ki, əgər ikili münasibətlərin normallaşmasını istəyirsizsə, Bakı ilə sülh danışıqlarını başa çatdırın, öhdəlikləri icra edin. Türkiyə bu prinsipiallığı qoruyub saxlayır". Hümbətova görə, Ərdoğan-Paşinyan görüşündə də bu məqamlara diqqət çəkildiyi şübhəsizdir. Onun sözlərinə görə, ancaq görüşdə müzakirə olunan məsələlər daha çox sülh sazişindən sonrakı mərhələni əhatə edir. İlk mərhələ münasibətlərin normallaşması, sonrakı mərhələ isə siyasi-iqtisadi əməkdaşlığın qurulmasıdır.

**M.İbrahimli**



# Azərbaycan Serbiya ilə təbii qaz və "yaşıl enerji" üzrə sənədlər imzalayıb

***İkitərəfli enerji əməkdaşlığının inkişafı məqsədilə Belqradda səfərdə olan energetika naziri Pərviz Şahbazov ilə Serbiyanın mədəniyyət və energetika naziri Dubravka Djedoviç Handanoviç arasında görüş olub.***

Energetika Nazirliyindən verilən məlumata görə, görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli inkişafında Azərbaycan və Serbiya dövlət başçılarının dostluq əlaqələrinin mühüm rolu vurğulanıb. Bolqarıstan-Serbiya İnterkonnektoru vasitəsilə Azərbaycan qazının Serbiyaya tədarükündən məmnunluq ifadə edilib və enerji tərəfdaşlığının "yaşıl enerji" sahəsində genişləndirilməsi perspektivləri dəyərləndirilib.

Məlumata görə, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin həyata keçirilməsi kontekstində Azərbaycan ilə Serbiya arasında "yaşıl enerji" sahəsində infrastruktur layihələrinin reallaşdırılması və elektrik enerjisinin ticarəti məqsədilə əməkdaşlığa maraq ifadə edilib. Söhbət zamanı Serbiyada qazın saxlama imkanları və qazla işləyən elektrik stansiyasının inşasında SOCAR-ın potensial iştirakı məsələləri də müzakirə edilib. Enerji əməkdaşlığının gündəliyində olan bütün bu məsələlər üzrə İşçi Qrupunun yaradılması razılaşdırılıb. Həmçinin COP29 Sədrliyinin enerji təşəbbüsləri və Enerji Günü çərçivəsində keçirilən tədbirlərdə iştirakla bağlı fikir mübadiləsi aparılıb.

Energetika naziri Pərviz Şahbazov deyib: "Azərbaycan Avropaya qaz tədarükü bazarlarını genişləndirmək hədəfi çərçivəsində Serbiya ilə əməkdaşlıqdan məmnundur. Bu gün SOCAR və "Srbijagas" arasında qaz təchizatı üzrə yeni müqavilənin və iki ölkənin "yaşıl enerji" sahəsində əməkdaşlığına dair sənədin imzalanması enerji tərəfdaşlığımızı möhkəmləndirən yeni səhifə açır. Gələcəkdə qaz tədarükünü 1 milyard kubmetrə çatdırmaqla bağlı planlar, bərpa olunan enerji resurslarımızın tədarükü Serbiyanın enerji təchizatının şaxələnməsinə və enerji keçidinə töhfə verəcək."

Serbiyanın mədəniyyət və energetika naziri Dubravka Djedoviç Handanoviç deyib: "Bu gün imzalanan sənədlərlə enerji sahəsində əməkdaşlığımız daha da güclənəcək. "Yaşıl enerji" sahəsində əməkdaşlıq böyük əhəmiyyət kəsb edir və bu istiqamətdə Azərbaycan şirkətlərinin təcrübəsi ilə birgə həyata keçirə biləcəyimiz infrastruktur layihələri üçün güclü platforma qururuq. "Yaşıl enerji" potensialımızın artırılması və sizin dəstəyinizlə həyata keçirdiyimiz qaz təchizatının diversifikasiyası üzrə vizyonumuz üst-üstə düşür. Təbii qaz və "yaşıl enerji" sahəsində əməkdaşlığımız Serbiyanın enerji təchizatına sabitlik və enerji təhlükəsizliyi gətirəcək".

Yekunda SOCAR və "Srbijagas" arasında qaz təchizatı üzrə alqı-satqı müqaviləsi və "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Serbiya Respublikasının Mədəniyyət və Energetika Nazirliyi arasında yaşıl enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

Yeni qaz müqaviləsi 1 noyabr 2024-cü il - 1 aprel 2025-ci il tarixləri arasında əlavə gündəlik 1 milyon kubmetr qazın təchizatını nəzərdə tutur. Anlaşma Memorandumu isə bərpa olunan enerjinin və "yaşıl hidrogen"in istehsalı - ticarəti, birgə təşəbbüs və layihələr üzrə əməkdaşlığı təşviq edir. Sənədə əsasən, bərpa olunan enerji sahəsinə qarşılıqlı investisiya, yeni "yaşıl texnologiya"ların tətbiqi, karbon tutma, utilizasiya və saxlama, elektromobillik, enerji saxlancı və "yaşıl maliyyə"ləşdirmə istiqamətlərində əməkdaşlıq ediləcək.

# Baş nazir gələn ilin büdcə zərfi ilə bağlı qərar imzaladı



***Azərbaycanın 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, 2025-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri Prezident İlham Əliyevə təqdim edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, büdcə zərfinə daxil olan sənəd və məlumatlar bəyənilib və "Büdcə sistemi haqqında" qanunun 12-ci maddəsində nəzərdə tutulmuş digər sənədlərlə birlikdə dövlət başçısına təqdim olunub.

# Bakı və İrəvan Sülh Sazişinin qısa müddətdə yekunlaşdırılması səyləri ilə bağlı razılığa gəldi

***Azərbaycan və Ermənistan sülhlə bağlı Sazişin yekunlaşdırılması üçün əlavə səylərin göstərilməsi barədə razılığa gəliblər.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında ABŞ dövlət katibi Antoni Blinkenin təşəbbüsü və iştirakı ilə Nyu



Yorkda keçirilən görüşün yekunları ilə bağlı XİN-in bəyanatında deyilir.

"Tərəflər mümkün qısa müddət ərzində Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Sazişin yekunlaşdırılması üçün əlavə səylərin göstərilməsi barədə razılığa gəliblər. Azərbaycan və Ermənistan tərəfləri görüşü təşkil etdiyinə görə dövlət katibinə minnətdarlıq bildiriblər", - deyə bəyanatda bildirilir.

# Azərbaycanla İsrail arasında mühüm saziş

***İsrail və Azərbaycan arasında müdafiə sənayesi sahəsində də əməkdaşlıq inkişaf etməkdə davam edir.***

"Unikal" xəbər verir ki, bu barədə İsrailin Azərbaycandakı səfiri Corc Dik özünün "X" hesabında yazıb.

O bildirib ki, "AS Holdings" və onun törəmə şirkəti, NATO standartlarına uyğun yüngül silahların istehsalı və inkişafı üzrə ixtisaslaşmış beynəlxalq miqyaslı "Ari Arms" şirkəti bu gün Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Azərsilah" dövlət şirkəti ilə Strateji Anlaşma Memorandumu (MOU) imzalayıb: "Bu əvəzolunmaz tərəfdaşlıq ölkələri daha da yaxınlaşdırır, müstəqillik və milli təhlükəsizliyi gücləndirmək üçün birgə inkişafa və birgə səylərə kömək edir. İmzalanma mərasimində müxtəlif nazirliklərin, idarələrin nümayəndələri, rəsmi şəxslər iştirak ediblər".

# Dövlət bankları ilə bağlı yeni qərar - Bu tələb sərtləşdirildi

***Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti "Banklarda korporativ idarəetmə Standartları"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı AMB-nin sədri Taleh Kazımov yeni qərar imzalayıb.

Qərara əsasən, bundan sonra özəl banklarla yanaşı nəzarət zərfi dövlətə məxsus olan banklarda da Müşahidə Şurasının üzvlərinin azı üçdə biri müstəqil üzv olmalıdır. Məsələn, Şuranın üzvlərinin sayı 5 olduqda müstəqil üzvlərin sayı 2, Şuranın üzvlərinin sayı 7 olduqda isə müstəqil üzvlərin




sayı 3 olmalıdır.

Həmçinin müstəqil üzv vəzifəsinə irəli sürülən şəxs həmin tarixdə bankın işçisi olmamalıdır. Əvvəllər bankda işləmiş şəxslər yalnız müəyyən fasilədən ("cooling off") sonra müstəqil üzv təyin oluna bilərlər. Fasilə müddəti şəxsin bankda işlədiyi müddətin azı 3-də 2-sini (azı 3 il) təşkil etməlidir.

Bundan başqa, Şuranın müstəqil üzvü olmaq üçün son 3 ildə bankdan müəyyən edilmiş əmək haqqı və mükafatdan, habelə dividend ödənişindən (2%-dək malik olduğu imtiyazlı səhmlər üzrə) başqa gəlir əldə etməmək tələbi də ləğv edilib.

AMB-nin Hüquq Departamentinə tapşırılıb ki, yeni qərarı Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Ədliyyə Nazirliyinə təqdim etsin.

# "COP29 gündəliyində olan 14 təşəbbüsü BMT-də təqdim etdik" - Muxtar Babayev

***"Nyu-York səfərimiz çox maraqlı keçir. BMT Baş Assambleyası çərçivəsində çoxlu görüşlər, tədbirlər baş tutub".***

"Unikal" xəbər verir ki, bu sözləri AZƏRTAC-a açıqlamasında Nyu-Yorkda səfərdə olan ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev deyib.

O bildirib ki, 79-cu sessiya çərçivəsində Nyu-Yorkda bütün dünyanı cəlb edən bir neçə böyük, o cümlədən "Gələcəyin Forumu" keçirilib. "Forumda çoxlu qərarlar qəbul olunub. Bundan başqa, Nyu-Yorkda həm də "İqlim Həftəsi" keçirilir. "İqlim Həftəsi"ndə Azərbaycanın COP29 komandası böyük heyətlə iştirak edir. Çox gərgin cədvəlimiz var. Bütün görüşlərdə iştirak və çıxış etməyə çalışırıq. COP29 komandasına, Bakıda keçiriləcək tədbirə çox böyük maraq var. Ona görə də onların istəklərinə, gözləntilərinə cavab vermək üçün biz hər bir tədbirdə aktiv iştirak etməyə çalışırıq", - deyə Muxtar Babayev bildirib.

Nazir əlavə edib ki, COP29 gündəliyində 14 böyük təşəbbüs var: "Bu təşəbbüsləri burada təqdim etmək imkanımız oldu. Şəffaflıqla bağlı platforma təqdim olundu və çox maraqlı keçdi. Tədbirdə yüzlərlə insan iştirak etdi. Maliyyə məsələlərinin müzakirəsi üçün şəffaflıq mövzusu COP29-un çox vacib digər tərəfidir. Şəffaflığın təmin olunması bizim üçün prioritetdir".

# Türkiyə MN Azərbaycanın Anım Günü ilə bağlı bəyanat yaydı

***Türkiyə Milli Müdafiə Nazirliyi Azərbaycanın 44 günlük Vətən müharibəsinin dördüncü ildönümü və 27 sentyabr - Anım Günü münasibətilə bəyanat yayıb.***

"Unikal" xəbər verir ki, bu barədə nazirliyin saytında məlumat dərc olunub.

Məlumatda nazirliyin sözçüsü Zeki Aktürk Türkiyə ilə Azərbaycanın iki dövlət, bir millət olduğunu diqqətə çatdırıb.




"İki dövlət, bir millət" anlayışı ilə bir və bərabər olduğumuz azərbaycanlı qardaşlarımızın 20 Sentyabr - Suverenlik Gününü bir daha təbrik edir, qəhrəman Azərbaycan Ordusunun işğal altındakı öz torpaqlarını azad etmək məqsədilə başlatdığı və 44 gün davam edən Vətən müharibəsinin dördüncü ildönümü, eləcə də 27 Sentyabr - Şəhidləri Anma Günü münasibətilə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin edilməsi uğrunda canını fəda edən bütün şəhidlərimizi rəhmət və minnətlə, qəhrəman qazilərimizi şükran və hörmətlə yad edirik", - o qeyd edib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutuldu

***Sentyabrın 26-sı saat 16:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Ərəvus yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ləkətağ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini iri çaplı pulemyotlardan atəşə tutub.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# Aqrar Kredit və İnkişaf Agentliyində yeni sədr təyinatı

***Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Kredit və İnkişaf Agentliyinə İdarə Heyətinin sədri vəzifəsinə təyinat olub.***

Yalçın Camalov İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib. O bu vəzifədə Seymur Mövlayevi əvəz edib.

Yalçın Camalov özəl və dövlət sektorunda 15 ildən artıq təcrübəyə malik peşəkar rəhbərdir. Ali təhsilini Türkiyədə Qazi Universitetinin iqtisadiyyat və idarəetmə ixtisası üzrə alıb, ABŞ-ın Yale Universitetinin İdarəçilik Məktəbinin "Sürətləndirilmiş Menecment" və MIT-nin Data, İqtisadiyyat və Proqramlarının Dizayn olunması "MicroMasters" proqramının məzunudur. Layihələrin İdarəolunması İnstitunun Layihə idarəçiliyi üzrə peşəkar (PMP) beynəlxalq sertifikatın sahibidir.

Yalçın Camalov İqtisadiyyat Nazirliyinin Əmlak komitəsində aparıcı mütəxəssis, Vest Consulting MMC-də Baş Menecer, Detal Aluminium MMC-də İcraçı Direktor vəzifələrində çalışmışdır. Karyerasını Əmlak Məsələləri Dövlət Komitəsində İnvestisiyaların cəlb edilməsi departamentinin direktoru və-



zifəsində davam etdirən Yalçın Camalovun son iş yeri Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasında Dövlət Nəzarəti Məsələləri şöbəsində monitorinq və təhlil sektorunun müdiri vəzifəsi olub.

İngilis və rus dillərini bilir. Ailəlidir, 2 övladı var.

33_27 IYUI-QARA.qxd 9/26/2024 10:15 PM Page 6



# Prezidentdən mühüm iqtisadi mesajlar: Müşavirədə yeni hədəflər qoyuldu

***Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə çıxış edib. Prezident İlham Əliyevin çıxışı:

-Bugünkü müşavirədə biz iqtisadi məsələləri müzakirə edəcəyik. İlin sonuna cəmi üç ay vaxt qalır. İlin sonuna qədər görüləcək işlər haqqında da fikir mübadiləsi aparılacaq.

Bütövlükdə deməliyəm ki, ilin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir. İlin əvvəlində mən bu ilin iqtisadi sahədə uğurlu olub-olmaması haqqında danışanda qeyd etmişdim ki, tam əminəm, bu il iqtisadiyyatımız üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər mənim sözlərimi təsdiqləyir. İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir. Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir.

Onu da bildirməliyəm ki, son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq bizim ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi və biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin. Son aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq. Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin edilməlidir. Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır.

Ancaq təbii olaraq, bizim əsas hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. İnflyasiya ilin əvvəlindən cəmi 1 faizdən bir qədər çox olmuşdur. Bu da çox müsbət göstəricidir. Mən artıq bəyan etdim ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq, baxmayaraq ki, inflyasiya çox aşağı səviyyədədir, baxmayaraq ki, ölkə qarşısında duran vəzifələr böyük maliyyə vəsaiti tələb edir, ilk növbədə, hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı. Bütün bunlara baxmayaraq, biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik. Bu yaxınlarda Azərbaycan Milli Məclisində etdiyim çıxışda bütün o rəqəmlər diqqətə çatdırılmışdır. Təkrar etmək istəmirəm, son beş il ərzində Azərbaycanda nə qədər böyük sosial islahatlar paketi reallaşdırıldı.

Yəni, bütün bu məsələlər tam əminliklə deməyə əsas yaradır ki, iqtisadi inkişaf templəri həm bu ilin sonuna qədər saxlanılacaq, həm də, - nəzərə alsaq ki, indi gələn ilin büdcəsi müzakirə olunur və büdcənin parametrləri də daha genişmiqyaslı olacaq, - gələn il də iqtisadi inkişaf templəri lazımi səviyyədə olacaq.



Xarici sərmayələrin cəlb olunması üçün, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir. Azərbaycanda hökm sürən sabitlik və proqnozlaşdırılan vəziyyət, eyni zamanda, Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi xarici investorların bizə olan münasibətini təbii olaraq daha da yaxşılaşdırıb. Baxmayaraq ki, Azərbaycanda çox müsbət sərmayə iqlimi uzun illərdir davam edir, hökm sürür. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Son illər ərzində və xüsusilə antiterror əməliyyatından sonra dövlət suverenliyimizin tam bərpa edilməsi təbii olaraq bütün investorlara ciddi müsbət siqnal göndərmişdir və biz bunun bəhrəsini indi görürük. Bizim ənənəvi sənaye məntəqələrimizdə, - Bakı şəhəri, Sumqayıt şəhəri, sənaye parkları, - yeni müəssisələr açılır. Eyni zamanda, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir.

Qeyd etdiyim kimi, indi gələn ilin büdcəsinin müzakirəsi gedir, yaxın vaxtlarda mənə təqdim ediləcək. Təbii olaraq, büdcə bizim imkanlarımızı əks etdirir. Biz, necə deyərlər, ayaqlarımızı yorğanımıza görə uzadırıq və uzatmalıyıq. Heç bir yerdən heç bir yardım almırıq, əksinə, xarici borcu azaldırıq və bir neçə il bundan əvvəl qarşıya qoyduğum vəzifə artıq uğurla yerinə yetirilir. Xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 beş faizdir və bu, bizə imkan verir ki, gələcəkdə daha az vəsaiti xarici borcun qaytarılmasına sərf edək. Bu gün onu da biz müzakirə edəcəyik, baxarıq, bəlkə də bəzi borcları vaxtından əvvəl ödəmək də faydalı ola bilər. Halbuki mən bunu artıq bir neçə dəfə demişəm ki, istəsək, biz bir gün ərzində bütün borcu sıfırlaya bilərik. Hər halda, bu məsələni müzakirə etmək üçün bu gün, əlbəttə ki, fikir mübadiləsi aparılacaqdır.

Gələn ilin əsas xərcləri artıq müəyyən edilib. Mənim Milli Məclisdəki çıxışımda əsas prioritetlər açıq-aydın göstərilib. İlk növbədə, ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil xərcləri, Qarabağın və Şərqi Zəngəzurun bərpası və digər layihələr. Həm sosialyönümlü layihələr, sosial infrastrukturla bağlı olan layihələr, həm də ümumi infrastrukturla bağlı olan layihələr - bütün bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapacaq. Bu barədə də danışacağıq. Elə etməliyik ki, biz gələn il imkan daxilində bütün əsas vəzifələri icra edək. Şübhə etmirəm ki, belə də olacaq. Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq.

Bu gün biz bir çox digər məsələləri müzakirə edəcəyik. Əminəm ki, müzakirə və əldə edilmiş nəticələr, qəbul ediləcək qərarlar bizim iqtisadi inkişafımızı daha da sürətləndirəcəkdir.

Sonra gələcək iqtisadi inkişafla bağlı müzakirələr olub.



## Naxçıvan Ali Məclisinə sədr seçə bilmədilər

***Sentyabrın 26-da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Ali Məclisin növbəti çağırışının ilk iclasını ən qocaman deputat Ramiz Məmmədov aparıb. İclasda Ali Məclisin Hesablayıcı komissiyasının yaradılması barədə məsələyə baxılıb. Ramiz Məmmədov Hesablayıcı komissiyanın tərkibini oxuyub, səsə qoyularaq qəbul edilib.

Deputatlardan Rafiq Novruzov komissiyanın sədri, Canməmməd Canməmmədov komissiyanın katibi, Gülxarə Əhmədova, Xəzəngül Orucova və Həbibə Allahverdiyeva komissiyanın üzvləri seçiliblər.

Sonra Ali Məclis sədrinin seçilməsi məsələsinə baxılıb, Ali Məclisin sədri vəzifəsinə təklif olunan namizəd dəstəklənmədiyi üçün Ali Məclisin sədr müavinlərinin seçilməsi məsələsinin müzakirəsinə başlanılıb.

Ali Məclisin sədri seçilmədiyindən təklif üçün söz deputatlara verilib. Deputat Əjdər Əliyev Ali Məclis sədrinin birinci müavini vəzifəsinə 41 saylı Ordubad şəhər seçki dairəsindən deputat seçilmiş Məmmədov Bəxtiyar İbrahim oğlunun namizədliyini irəli sürüb.

Təklif səsə qoyularaq qəbul edilib, Məmmədov Bəxtiyar İbrahim oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini seçilib.

İclası davam etdirən Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov növbəti məsələnin Ali Məclis sədrinin müavininin seçilməsi olduğunu bildirib.

Deputat Ülkər Bayramova Ali Məclis sədrinin müavini vəzifəsinə 42 saylı Aşağı Əndəmic seçki dairəsindən deputat seçilmiş Abdullayev Arzu Kamal oğlunun namizədliyini irəli sürüb.

Səsvermə nəticəsində Abdullayev Arzu Kamal oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilib.

Bununla da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası başa çatıb.

33_27 IYUl-QARA.qxd 9/26/2024 10:15 PM Page 7



## Ali Məclis sədrinə yeni müavinlər seçildi

***Naxçıvan Muxtar Respublikası Ali Məclis sədrinə yeni müavinlər seçilib.***

"Unikal" xəbər verir ki, VII çağırış Ali Məclisinin birinci sessiyası keçirilib.

Sessiyada deputat Bəxtiyar Məmmədov Ali Məclis sədrinin birinci müavini, Arzu Abdullayev isə müavini seçiliblər.

## XİN-dən Makrona cavab

***Xarici İşlər Nazirliyi Fransa Prezidenti Emmanuel Makronun "Azərbaycanın Ermənistana təzyiqləri və ərazi iddiaları şəraitində Fransanın Ermənistanla çiyin-çiyinə dayandığı" fikrinə münasibət bildirib.***



"Unikal" xəbər verir ki, bu barədə XİN-in mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə şərh verib.

"Fransa Prezidenti Emmanuel Makronun 25 sentyabr tarixində BMT Baş Assambleyasında çıxışı zamanı, "Azərbaycanın Ermənistana təzyiqləri və ərazi iddiaları şəraitində Fransanın Ermənistanla çiyin-çiyinə dayandığı" fikirləri Fransanın həm ölkəmizə, həm də ümumilikdə sülh prosesinə göstərdiyi qərəzli ermənipərəst yanaşmanın növbəti nümunəsidir", - şərhdə vurğulanıb.

Onun sözlərinə görə, İrəvanı "revanşizmə hazırlayan, bu ölkənin geniş şəkildə silahlanmasını həyata keçirən Fransanın Azərbaycan tərəfini təzyiqlərdə təqsirləndirməsi qəbuledilməzdir: "30 ilə yaxın Azərbaycan ərazilərini işğal altında saxlayan, bir milyona yaxın azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmış, kütləvi qırğınlar və insanlığa qarşı cinayətlər törətmiş, Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya edilmiş yüz minlərlə azərbaycanlının qayıdış hüququnu heçə sayan Ermənistanın sülhsevər qurban ölkə kimi təqdim olunması Fransanın apardığı siyasətin nə qədər ədalətsiz olduğunu nümayiş etdirir". XİN-in sözçüsü qeyd edib ki, "dünyanın bir çox yerlərinə münasibətdə xarici siyasəti iflasa uğramış Fransanın bölgəmizdə destruktiv fəaliyyətinə son qoyulmasını tələb edirik".

## Vaqif Alıyevin qalıqları Gəncədə dəfn edildi

***Birinci Qarabağ müharibəsində şəhid olan, 31 il sonra dəfn yeri və kimliyi müəyyən edilən Vaqif Sərdar oğlu Alıyevin qalıqları Gəncədə dəfn olunub.***

"Unikal" xəbər verir ki, şəhidin qalıqları bu gün Gəncənin şəhidlər xiyabanında torpağa tapşırılıb.

Dəfn mərasimində Gəncə İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının nümayəndələri, şəhidin döyüş yoldaşları, ailə üzvləri, şəhid ailələri və qazilər iştirak ediblər.

Qeyd edək ki, Vaqif Sərdar oğlu Alıyev 1966-sı ildə Gədəbəy rayonunun Qoşabulaq kəndində anadan olub. 1993-cü il də Ağdam rayonun Sırxavənd kəndi istiqamətində itkin düşüb.

# "Ermənistan Azərbaycana qarşı məkirli siyasət aparır"

### Arzu Nağıyev: "Müxtəlif ölkələr özlərinin daxili və xarici siyasəti olmayan Ermənistanın guya arxasında dayanaraq onlardan vasitəçi kimi istifadə edir"

***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin yeddinci çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı qeyd etdiyi məsələlərlə bağlı fikirlərindən, hərbi gücümüzün artırılmasından, Ermənistanda revanşist qüvvələrin baş qaldırmasından, hərbi sənayenin inkişafından və başqa məsələlərdən danışıb.***

***-Arzu müəllim, Prezident İlham Əliyev 7-ci çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı bildirdi ki, birinci nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Belə ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, amma həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Bu istiqamətdə işlər necə davam etdiriləcək?***



-Prezident İlham Əliyevin yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı proqram xarakterli çıxışı mühüm əhəmiyyət kəsb edir. Hazırkı vəziyyət, dünyada baş verən proseslər, Azərbaycanın rolu və bu istiqamətdə hansı işlər görülüb, gələcəkdə hansı işlərin görüləcəyi verilən əsas bəyanatlar idi. Cənab Prezident hər bir istiqamət üzrə ayrı-ayrılıqda öz fikrini bildirdi. Əsas istiqamətlərdən biri odur ki, Vətən müharibəsindən və antiterror əməliyyatlarından sonra suverenliyimiz tam bərpa olundu. Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirildi. Bu, çox mühüm əhəmiyyət kəsb edən məsələdir. Mühüm istiqamətlərdən biri milli təhlükəsizliyin təmin edilməsidir. Dövlət başçısı dəfələrlə çıxışlarında suverenliyin, ərazi bütövlüyünün və hər bir Azərbaycan vətəndaşının rifahının əsas istiqamət olduğunu qeyd edir. Bu baxımdan, hərbi gücümüzün artırılması suverenliyimizə, gələcəkdə iqtisadi və digər istiqamətlərdə atılacaq addımlara görə çox lazımdır.

***-Ali Baş Komandan qeyd edib ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bu, təkcə marginal siyasi ünsürlər deyil, eyni zamanda, bugünkü Ermənistan hakimiyyəti bu xülyalarla yaşayır. Onlar İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri ilə barışmaq istəmirlər. Bu günə qədər heç bir funksional mahiyyət daşımayan Minsk qrupunun formal olaraq saxlanması da məhz buna dəlalət edir. Ermənistan və onun arxasında dayanan ölkələrin bizə qarşı çirkin oyunları bitirməməsinin səbəbi nədir?***

-Bəli, bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırır. Həmçinin, Ermənistan hakimiyyətini vasitə kimi istifadə edərək tək Azərbaycana deyil, bütün qonşu dövlətlərə qarşı istifadə etmək Qərbin əsas marağıdır. Buna görə də mütləq şəkildə güclü olmaq lazımdır. Bu gün Minsk qrupunun ləğvi də mütləqdir. Vaxtilə Minsk qrupu yarananda sülhün bərqərar olması istiqamətində addımlar atmalı idi. Amma onlar birmənalı şəkildə deklarativ bəyanatlarla yadda qaldılar. Müxtəlif ölkələr özlərinin daxili və xarici siyasəti olmayan Ermənistanın arxasında dayanaraq onlardan alət kimi istifadə edir. Ermənistan qələbəmizi həzm etməyən ölkələrlə əlbir olub Azərbaycana qarşı məkirli siyasət aparır.

***-Dövlət başçısı çıxışında vurğulayıb ki, yerli hərbi sənaye kompleksimizi də daha sürətlə inkişaf etdirməliyik. Bu il bu məqsədlə böyük vəsait ayrılıb və gələn il də ayrılacaq. Bizim bütün hərbi zavodlarımızda genişmiqyaslı modernləşmə işləri aparılır. Deməli, yeni avadanlıq, texnika, silah-sursat istehsal olunur. Bir neçə xarici tərəfdaşla yeni istehsalat sahələrinin yaradılması artıq praktik müstəviyə keçib. Hərbi sənayenin inkişafı istiqamətində hansı addımlar atılacaq?***

-Hərbi gücün artırılmasında hərbi sənaye kompleksinin inkişafı olduqca vacibdir. Yeni silahların, texnologiyaların əldə edilməsi, istehsal olunması kimi istiqamətlər çox mühüm məsələdir. Burada da döyüş qabiliyyətinin artırılması üçün ən müasir silahlar istehsal olunmalı, onlardan istifadə edəcək kadr potensialı yetişdirilməlidir. Eyni zamanda hərbi sənaye kompleksinin gücləndirilməsi ölkəmizin inkişafı, yeni iş yerlərinin açılması deməkdir. Bu, istehsal olunacaq hərbi məhsulların ixrac edilməsi baxımından da olduqca vacibdir.

***-Prezident bizim bəzi xidmət yerlərimizin hündürlüyünün 3 min metrdən çox olduğunu söyləyib. Amma buna baxmayaraq, bizim sərhədboyu yerləşən hərbi mövqelərimiz möhkəmlənir. Hər an Ermənistandan istənilən təxribatı gözləmək olar. Ermənistan tərəfi həm kütləvi surətdə silahlanır, eyni zamanda, xarici ölkələrlə, özü də böyük dövlətlərlə hərbi təlimlər keçirir. Sərhədlərin möhkəmlənməsi üçün hansı işlər aparılacaq?***

-Ən ciddi məsələlərdən biri sərhədlərimizin qorunmasıdır. Ermənistanla sərhədlərin demarkasiya və delimitasiyası başlayıb. Məlum olduğu kimi, 13 kilometr delimitasiya və demarkasiya olunub. Beş yüz kilometrə qədər sərhəd ciddi relyefi olan ərazilərdən keçir. Burada bərkitmə işlərinin aparılması, həmçinin, müasir istehkam qurğularından istifadə olunması mühüm məsələdir. Belə ki, həmin ərazilər əsasən yüksəkliklərdir. Burada da qulluq keçmək üçün komandolar, eyni zamanda yeni hərbi birləşmələrin yetişdirilməsi vacibdir. Ona görə ki, Ermənistandan hər an müəyyən təxribat gözləmək olar. Belə ki, Ermənistan və Azərbaycan arasındakı şərti sərhəddə vizual kəşfiyyatçılar dayanaraq Qərbə yalan məlumatlar ötürürlər. Fransa bu məsələdə daha çox fəallıq göstərir, Ermənistanın silahlanması üçün yardımlar olunur. Bunlar Azərbaycanın müstəqil daxili və xarici siyasətini, eyni zamanda qələbəmizi həzm edə bilmirlər. Ona görə də Prezident İlham Əliyev bu istiqamətdə mühüm mesajlar verdi. Ermənistan və onun arxasında dayanan istənilən qüvvə və ölkə bilməlidir ki, Azərbaycanın dönməz daxili, xarici siyasəti var. Hər hansı təhdidin qarşısının alınması üçün bizim güclü ordumuz, xüsusi xidmət orqanlarımız və hərbi birləşmələrimiz var.

***Anar Kəlbiyev***

33_27 IYUI-QARA.qxd 9/26/2024 10:15 PM Page 8



# İcra başçılarının "suç keçiləri"

## Rayon rəhbərləri kiçik məmurları "qurbanlıq" seçir - İcra hakimiyyətlərindəki korrupsiya əməliyyatları niyə rəhbər şəxslərdən yan keçir?

***Ötən həftəsonu yayılan məlumatda bildirilirdi ki, Ağsu Rayonu İcra Hakimiyyətinin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Feyzullayev Sənan Nadir oğlu və Əmlak Məsələləri Dövlət Xidmətinin Şamaxı Ərazi şöbəsinin Torpaqların idarə edilməsi və istifadəsinə nəzarət sektorunun Ağsu rayonu üzrə məsləhətçisi Əsgərov Vüqar Səxavət oğlunun qanunsuz hərəkətləri ilə bağlı həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb. Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilmişdi.***



Məlumatda deyilirdi ki, aparılmış istintaq-əməliyyat tədbirləri ilə Vüqar Əsgərov və Sənan Feyzullayevin cinayət əlaqəsinə girərək aidiyyəti dövlət orqanlarının səlahiyyətli vəzifəli şəxslərinin qərarlarına qanunsuz təsir göstərməklə Ağsu rayonu ərazisində yerin təkindən istifadəyə dair icazə verilməsi üçün vətəndaşdan müxtəlif məbləğlərdə pul vəsaiti tələb etmələrinə və almalarına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlar əsasında Vüqar Əsgərov və Sənan Feyzullayevə Cinayət Məcəlləsinin 312-1.1-ci (nüfuz alveri) maddəsi ilə ittiham elan edilməklə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Binəqədi Rayon Məhkəməsinin qərarı ilə ev dustaqlığı (əsas) və vəzifədən kənarlaşdırma (əlavə) qətimkan tədbirləri seçilib.

Hazırda cinayət işi üzrə bütün halların tam və hərtərəfli araşdırılması davam etdirilir.

Qeyd edək ki, son bir neçə ayda ayrı-ayrı rayonların icra hakimiyyətlərində oxşar korrupsiya əməliyyatları keçirilib. Məsələn, iyunda Daşkəsən rayon İcra Hakimiyyətində vəzifəli şəxslər saxlanılmışdı. Belə ki, keçirilən əməliyyat zamanı memarlıq və tikinti şöbəsinin müdiri Elman Məmmədov və ümumi şöbənin işçisi Yaqub Bayramov saxlanılıb. Həmin şəxslərin korrupsiya cinayətlərində şübhəli bilindikləri iddia olunurdu. Faktı Daşkəsən rayon İcra Hakimiyyətindən də təsdiqləmişdilər.

Sentyabrın əvvəllərində isə İsmayıllı rayonunda vəzifəli şəxslərə qarşı əməliyyat keçirilmişdi. Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə rayonun bir sıra vəzifəli şəxslərinin qanun pozuntularına yol verməsi barədə məlumat daxil olub. Keçirilən əməliyyat nəticəsində Rayon İcra Hakimiyyəti başçısının İsmayıllı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Əlişir Süleymanov və kəndlərdən birinin bələdiyyə sədri saxlanılmışdı.

Ötən il isə Abşeron və Tərtər rayonlarının icra hakimiyyətlərində əməliyyat keçirildiyi bildirilmiş, həmin məlumatlardan da ikinci, üçüncü dərəcəli vəzifəli şəxslərin saxlanıldığı ortaya çıxmışdı.

Xatırladaq ki, 2019-cu ildən etibarən Azərbaycanda çox sayda icra başçısının həbsi ilə nəticələnən genişmiqyaslı anti-korrupsiya əməliyyatları keçirilmişdi. Bu əməliyyatlar nəticəsində yalnız vəzifəsini deyil, azadlığını itirən rayon rəhbərləri aşağıdakılar idi:

1. İmişli rayonunun sabiq icra başçısı Vilyam Hacıyev 12 il azadlıqdan məhrum edilib.
2. Biləsuvar Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Mahir Quliyev 11 il həbs cəzası alıb.
3. Neftçala Rayon İcra Hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev 10 il müddətinə azadlıqdan məhrum edilib.
4. Cəlilabad Rayon İcra Hakimiyyətinin sabiq başçısı Namiq Zeynalova 12 il həbs cəzası verilib.
5. Yevlax Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədov 7 il 3 ay həbs cəzasına məhkum edilib. Ötən ilin yanvar ayında Şəki Apellyasiya Məhkəməsinin qərarına əsasən, Q.Səmədovun 7 il 3 ay müddətinə azadlıqdan məhrumetmə cəzası 6 ilə endirilib. O, 2023-cü ilin iyul ayında azadlığa buraxılıb.
6. Kürdəmir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Ceyhun Cəfərov 8 il 6 ay müddətinə həbs cəzasına məhkum edilib.
7. Şəmkirin sabiq icra başçısı Alimpaşa Məmmədov 2021-ci ilin aprel ayında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində həbs olunub.
8. Ağstafanın sabiq icra başçısı Nizaməddin Quliyev 9 il müddətinə azadlıqdan məhrum edilib. Nizaməddin Quliyev 2021-ci ilin sentyabrın 7-də Gəncə modul tipli xəstəxanasında COVID-19-dan vəfat edib.

Lakin son illərdə şəhər və rayon icra hakimiyyətlərində anti-korrupsiya əməliyyatları davam etdirilsə də, bu dəfə rəhbər şəxslərin yox, aşağı vəzifəli şəxslərin saxlanılması, həbs olunması və ya barələrində ev dustaqlığı qərarlarının verilməsi diqqət çəkir. Bu isə şübhəsiz ki, təəccüb doğurur. Məsələ orasındadır ki, həbs edilən icra başçılarının cinayət işlərinə dair istintaq materiallarından aydın görünürdü ki, onların xəbəri, icazəsi olmadan ikinci, üçüncü dərəcəli heç bir məmur hər hansı qanunsuzluğa imza atmaq iqtidarında deyil. Obrazlı desək, icra hakimiyyətlərində rayon rəhbərindən izinsiz quş uçsa qanad, qatır qaçsa dırnaq salır.

Elə isə son illərdəki anti-korrupsiya əməliyyatlarında icra nümayəndəsi, şöbə müdiri, hətta hansısa şöbənin sıravi işçisinin həbsi ilə kifayətlənmək nə qədər doğrudur və bu büdcə vəsaitlərinin talan edilməsinə, rüşvətxorluğa qarşı mübarizədə nə qədər effektiv ola bilər?

Digər tərəfdən belə görünür ki, 2019-2020-ci illərdəki anti-korrupsiya əməliyyatlarında həbs olunan icra başçılarının acı aqibətindən "dərs alan" rayon rəhbərləri taktika dəyişiblər. Onlar əməkdaşlarını "qurbanlıq" olaraq seçiblər, bu isə rayon rəhbərlərinin özlərini "sudan quru çıxarmağa" imkan verir.

Ekspertlər haqlı olaraq belə düşünürlər ki, anti-korrupsiya əməliyyatlarının effektivliyi, səmərəliliyi baxımından bu qanunsuz əməllərin baş verməsində həlledici rol sahibi olanlar hüquqi məsuliyyətə cəlb edilməlidir. Əks təqdirdə ikinci, üçüncü dərəcəli məmurları "suç keçisi" elan etməklə keçirilən əməliyyatların ölkədə rüşvət və korrupsiyanın kökünü qazımaq nöqtey-nəzərindən ürəkaçan nəticələr doğuracağına ümid bəsləmək olmur...

***Toğrul Əliyev***



# Leyla Əliyeva qadın və uşaq sığınacağını ziyarət edib

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Mehriban Zeynalovanın sədri olduğu qadın və uşaq sığınacağında olub.***

"Unikal" xəbər verir ki, Leyla Əliyeva bununla bağlı rəsmi "Instagram" hesabında fotolar paylaşıb.

# Ceyhun Bayramov polşalı həmkarı ilə görüşüb

***25 sentyabr 2024-cü il tarixində BMT Baş Assambleyasının 79-cu sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Polşa Respublikasının xarici işlər naziri Radoslav Şikorski ilə görüşüb.***

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, Azərbaycanla Polşa arasında siyasi, iqtisadi, alternativ enerji, humanitar və digər sahələrdə münasibətlərin geniş perspektivə malik olduğu, əlaqələrin inkişafında siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub.

Nazir bu il ölkəmizin ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yeni tərəfdaşlıq sahələri üçün əlverişli imkanlar yaratdığını və bu çərçivədə Azərbaycanın Polşa ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfi Azərbaycan-Ermənistan normallaşma prosesi barədə ətraflı məlumatlandırıb. Sülh sazişinin uğurla tamamlanması üçün Ermənistan Konstitusiyasında müvafiq dəyişikliklər edilməsinin zəruriliyi vurğulanıb.

Görüşdə yeni əməkdaşlıq istiqamətləri və qarşılıqlı maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# İpoteka kreditlərinin aylıq ödənişi artıb

***Avqust ayında bir müştəriyə orta hesabla 63579 manat ipoteka krediti verilib. Bu ilin əvvəli ilə müqayisədə 2523 manat çoxdur.***

"Unikal" Mərkəzi Banka istinadən xəbər verir ki, vətəndaşlar bu kreditləri orta hesabla 281 aya götürüblər. İpoteka kreditlərinin orta faiz dərəcəsi 6,37 faiz olub. İpoteka krediti götürənlər hər ay orta hesabla 452 manat 50 qəpik ödəyiblər. Qeyd edək ki, ipoteka kreditlərinin aylıq ödəniş məbləği ilin əvvəli ilə müqayisədə təxminən 20 manat artıb.

Bu ilin yanvar-avqust aylarında İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 337,7 milyon manat kredit verilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,4 % azdır. Hesabat dövründə Fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 10,1 % azalaraq 280,7 milyon manat olub.

İl ərzində İKZF-nin istiqraz buraxmaqla cəlb etdiyi vəsaitin məbləği 59,1 % artaraq 350 milyon manata çatıb, Fonda dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği isə dəyişməyərək 65,7 milyon manat qalıb.

33_27 IYUI-QARA.qxd 9/26/2024 10:15 PM Page 9



# Ceyhun Bayramov Volker Türklə görüşdü



***Xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 79-cu sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı Volker Türk ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb.

Ötən gün baş tutan görüşdə Azərbaycan və BMT təsisatları arasında bir sıra sahələr, o cümlədən insan hüquqlarının qorunması üzrə əməkdaşlıq məsələləri, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın hər zaman səmərəli BMT sisteminin tərəfdarı olduğunu, o cümlədən ölkəmizin BMT Nizamnaməsi, çoxtərəflilik və BMT orqanları ilə geniş əməkdaşlıq prinsiplərinə sadiqliyini vurğulayıb.

Azərbaycan və BMT arasında müxtəlif sahələrdə, o cümlədən insan hüquqlarının qorunması sahəsində əməkdaşlığın mövcudluğu məmnunluqla qeyd olunub.

İnsan Hüquqları üzrə Ali Komissarlıq Ofisinin insan hüquqlarının qorunması işində müvafiq fəaliyyətinin, habelə dövlətlərin bu sahədə potensialının artırılması istiqamətində tədbirlərinin əhəmiyyətli olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov insan hüquqlarının fundamental prinsiplərinin müdafiəsinə tam şəkildə sadiq olan Azərbaycanın beynəlxalq insan hüquqları sisteminin gücləndirilməsinə, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqinə mütəmadi əsasda töhfə verdiyini, davamlı olaraq bu sahədə əhəmiyyətli irəliləyişlər əldə etdiyini vurğulayıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam təminindən sonra vətəndaşlarımızın fundamental hüquqlarının bərpası istiqamətində ölkəmiz tərəfindən aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə tədbirləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə qarşı tərəfə ətraflı məlumat verilib.

Ölkəmizin cari ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyi xatırlanıb, tədbir çərçivəsində görülən işlər barədə məlumat verilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Makronun yanlış fikirlərini rədd edirik - İcma

***Qərbi Azərbaycan İcması olaraq, Fransanın prezidenti Emmanuel Makronun BMT Baş Assambleyasında 2024-cü il sentyabrın 25-də səsləndirdiyi Azərbaycanın guya Ermənistana "təzyiq" göstərməsi və "ərazi gərginliyi" barədə tamamilə yanlış və qəbuledilməz fikirlərini qətiyyətlə rədd edirik.***

"Unikal" xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında deyilir.

Bəyanatda, həmçinin qeyd olunur: "Azərbaycanın torpaqlarının Ermənistan tərəfindən otuz il ərzində işğalına dəstək vermiş, bir milyon azərbaycanlının Ermənistandan və işğal olunmuş Azərbaycan ərazilərindən qovulmasına göz yummuş, vaxtilə münaqişənin dinc yolla həlli üçün atılan addımlara qarşı çıxmış Fransa rəhbərinin indi sülhə və beynəlxalq hüquqa istinad etməsi olduqca ikiüzlü bir yanaşmadır. Xatırladaq ki, Makronun indi ikiüzlülük nümayiş etdirdiyi BMT Baş Assambleyası, 2008-ci ildə münaqişənin həllinə xidmət edən müvafiq qətnamənin qəbuluna Fransanın mane olma cəhdlərinə şahidlik etmişdir.

Aydın məsələdir ki, imperialist gündəliyə malik Fransa, Azərbaycanın beynəlxalq hüquqa uyğun olaraq münaqişəni həll edib, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən narazıdır. Çünki bu, onun regionun işlərinə müdaxilə etmək imkanlarını məhdudlaşdırır. Makron bölgədə yenidən münaqişə yaratmaq məqsədilə Ermənistana böyük həcmdə silah göndərir və buna informasiya hazırlığı kimi beynəlxalq platformalarda sanki regionda müəyyən gərginlik olduğu təəssüratı yaratmağa çalışır. Azərbaycana qarşı atdığı böhtanlar da Makronun bu məqsədinə xidmət edir.

Biz Fransadan tələb edirik ki, bu dağıdıcı niyyətindən əl çəksin, Ermənistana silah göndərməyi dərhal dayandırsın, regionun işlərinə qarışmasın və sülhə mane olmasın. Eyni zamanda, Ermənistanı Fransanın oyununda alət olmamağa, genişmiqyaslı silahlanma proqramını dayandırmağa, diqqətini Azərbaycanla sülh əldə etməyə yönəltməyə və Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmalarına şərait yaratmağa çağırırıq".

# Rüfət Quliyev mandatdan sonra şirkətini də itirə bilər

## Sabiq deputat siqaret bazarındakı rəqabəti Cavanşir Feyziyevə uduzur? - İlginc təfərrüatlar...

***Tütün məhsulları istehsal edən "European Tobacco-Baku" Açıq Səhmdar Cəmiyyəti (ASC) məhkəməyə verilib. Bu günlərdə yayılan məlumatda bildirilirdi ki, iddiaçı İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Komitəsidir.***

Məhkəmə çəkişməsi icarə müqaviləsi üzrə mübahisələrlə bağlıdır. İşə Bakı Kommersiya Məhkəməsində baxılacaq.

"European Tobacco-Baku" ASC 2001-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 44 635 220 manatdır. Şirkətin qanuni təmsilçisi Səfərov Zaur Məhəmməd oğludur.



2017-ci ildən 2019-cu ilədək şirkəti keçmiş deputat Rüfət Quliyev idarə edib. Bu baxımdan, "European Tobacco-Baku" ASC Rüfət Quliyevin şirkəti kimi tanınır.

Xatırladaq ki, III, IV, V və VI çağırış Azərbaycan Respublikasının Milli Məclisinin üzvü olan Quliyev bu il sentyabrın 1-də keçirilmiş növbədənkənar seçkilərə qatılmayıb. Daha doğrusu, yəqin ki, ona namizədliyini irəli sürmək məsləhət bilinməyib. Beləliklə mandatını itirən sabiq deputatın adı indi də öz şirkəti ilə bağlı məhkəmə çəkişməsində hallanır.

Maraqlıdır ki, ötən ilin sentyabrında "European Tobacco-Baku" ASC-nin nizamnamə kapitalı hər bir səhmin nominal dəyərinin azaldılması yolu ilə, 44 635 220 manatdan azaldılaraq, 223 176 manat olmuşdu. Həmin vaxt bunun səbəbi açıqlanmamışdı.

Bu ilin fevralında isə "European Tobacco-Baku"nun öz səhmdarlarına təzyiq edib səhmləri almaq istədiyinə dair qalmaqallı xəbər yayılmışdı. Səhmdarlar aylıq dividendlərinin verilmədiyini, üstəlik onlara məxsus səhmlərin qat-qat ucuz qiymətə satılması üçün təzyiq edildiyini iddia edirdilər.

Həmin vaxt "Xəzər TV"nin hazırladığı videomaterialda bildirilirdi ki, şikayətçilərin sözünə görə, onlar əvvəllər Bakı Tütün Kombinatının işçiləri olublar. 1999-cu ildə onlara, Kombinatın bazasında yaradılan "European Tobacco-Baku" şirkətinin səhmləri verilib.

Vətəndaşlar iddia edirdilər ki, hazırda şirkət rəhbərliyi səhmləri ucuz qiymətə almaq istəyir. Üstəlik onlara ötən müddət ərzində dividend də verilməyib.

İddiaçılar bildirir ki, səhmdarlara verilməli olan dividendlərin faizi də azaldılıb.

"European Tobacco-Baku" ASC-dən isə səslənən iddialara ümumi şəkildə münasibət bildirilmiş, dividendlərin az olması inandırıcı görünməyən şəkildə izah olunmuşdu.

Avqustda isə Rüfət Quliyevə məxsus şirkətin adı növbəti dəfə məhkəmə xəbəri ilə gündəmə gəlmişdi. Həmin xəbərdə vurğulanırdı ki, siqaret istehsalı ilə məşğul olan şirkət məhkəməyə verilib, iddiaçılar isə Bayramov Elşən, Nəzirova Əsmət, Ağamalıyev Nizami və Həsənov Üzeyir adlı Azərbaycan vətəndaşlarıdır. Məhkəmə iddiasının təfərrüatları isə açıqlanmamışdı.

Daha bir maraqlı nüans: üç il öncə başqa bir deputat Cavanşir Feyziyev Azərbaycanın tütün bazarında inhisarçı mövqelərə sahib olan həmkarı Rüfət Quliyevə açıq rəqib olmuşdu. Belə ki, Feyziyev əslində sözügedən bazarda əvvəldən də müəyyən paya sahib idi. Məsələ burasındadır ki, onun nəzarətində "Tabaretta" adlı şirkət var. Feyziyevin əmisi oğlu Elman Cavanşir isə Sumqayıtda hələ 2018-ci ildə istifadəyə verilən, sərmayəsi 78 milyon manat olan bu siqaret zavodunun direktorudur. Sumqayıt Kimya Sənaye Parkının rezidenti olaraq fəaliyyətə başlayan müəssisədə 8 ədəd istehsal xətti fəaliyyət göstərir ki, bunların illik istehsal həcmi 14 milyard ədəd siqaret təşkil edir. Hazırda müəssisədə həm "Tabaterra" şirkətinə məxsus brendlər, həm də dünyanın ən böyük istehsalçıları olan "British American Tobacco", "Japan Tobacco International" və "İmperial Tobacco" kimi şirkətlərə məxsus beynəlxalq brendlər istehsal edilir.

2021-ci ildə maraqlı bir hadisə baş verdi: "Azərtütün" Açıq Səhmdar Cəmiyyəti özəlləşdirməyə çıxarıldığı zaman deputat öz əmisi oğlunun adına "Tabaterra Leaf" Qapalı Səhmdar Cəmiyyəti təsis etdi. Nizamnamə kapitalı 5 min manat, qanuni təmsilçisi isə Elman Beşir oğlu Cavanşir, Sumqayıt şəhəri, Sülh küçəsi, 18 ünvanında - "Xovlu İpək Fabriki"nin ərazisində qeydiyyatdan keçən şirkət Zaqatala rayonu, Yuxarı Tala kəndində yerləşən "Azərtütün" Açıq Səhmdar Cəmiyyətinin səhmlərinin 85 faizini aldı. Bu isə C.Feyziyevin siqaret bazarında yeni inhisarçıya çevriləbiləcəyi yönündə ehtimalların ortaya çıxması ilə nəticələndi. Bir çoxlarının fikrincə indi əsas düşündürücü sual bu idi: Cavanşir Feyziyevlə Rüfət Quliyevin "tütün rəqabəti"ndən kim qalib çıxacaq?

Son bir ildəki bu xəbərlər, eləcə də Quliyevin deputat mandatını itirməsi fonunda işlərin heç də yaxşı istiqamətdə getdiyini düşünmək, hətta Feyziyevlə rəqabətdə mövqelərini itirməyə başladığını təxmin etmək mümkündür.

***Toğrul Əliyev***

33_27 IYUl-QARA.qxd 9/26/2024 10:15 PM Page 10



# Keçmiş iri məmurun xaricdəki biznesinin kodları...

## Sabiqlərin izi ilə: Akim Bədəlovun ölkədən kənarda fəaliyyət göstərən şirkətləri niyə bağlanmaq təhlükəsi ilə üzləşib?

***”Unikal” qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. ”Sabiqlərin izi ilə” adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz 2019-cu ildə ləğv edilmiş Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin rəhbəri Akim Bədəlov haqqındadır.***

Akim Bədəlov 2013-2019-cu illərdə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri olub. 2019-cu ildə agentlik ləğv edilib və Energetika Nazirliyinin tərkibində Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılıb. Hazırda bu qurumun rəhbəri Cavid Abdullayevdir.

Vəzifəsini itirdikdən sonra Akim Bədəlovun həbs oluna biləcəyi iddiaları irəli sürülmüşdü. Səbəb kimi isə onun



fəaliyyətində ciddi nöqsanların olması, xüsusilə, Milli Sağlamlıq Mərkəzinin inşasında ortaya çıxan problemlərin ortaya çıxması göstərilirdi. Sabiq məmurun bunda məsuliyyəti nədən ibarətdir? Bu barədə bir qədər sonra danışacağıq.

Hələlik isə A.Bədəlovun vəzifəsini itirdikdən sonra həbs oluna biləcəyinə dair iddialara qayıdaq. Bildirildiyinə görə, onun rəhbərliyi dövründə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində qeyri-şəffaflıq baş alıb gedib, dövlət vəsaitlərinin təyinatı üzrə xərclənməsində ciddi nöqsanlara yol verilib, adıçəkilən qurum qarşısında qoyulan tapşırıqlar isə demək olar yerinə yetirilməyib. Nəticədə Agentliyin ləğvi, Bədəlovun isə vəzifəsiz qalması qaçılmaza çevrilib.

Sabiq məmurun xaricdəki biznesi ortaya çıxınca vəziyyət bir az da qəlizləşdi. Belə ki, onun yalnız Azərbaycanda deyil, Gürcüstanda, Türkiyə və Almaniyada da iri biznes qurduğu aşkarlandı. Məsələn, məlum oldu ki, Akim Bədəlovun Beşir Səfəroğlu küçəsi 7/36-da qeydiyyatda olan həyat yoldaşı Akifə Mövsümova 2011-ci il fevralın 9-da İstanbulda Mehmet Düşkün adlı Türkiyə vətəndaşı ilə birgə ”Hazarturk İnşaat ve Dış Ticaret Limited Şirketi”ni təsis edib. Bu şirkət 1991-ci ildə Qarakənd üzərində ermənilər tərəfindən vurulmuş vertolyotda faciəli şəkildə həlak olmuş keçmiş dövlət katibi Tofiq İsmayılovun yaratdığı və sonradan Bədəlovların ələ keçirdiyi şirkətin Türkiyə uzantısıdır. Şirkət İstanbul Ticarət Sicili Memurluğunda 160 min lirə nizamnamə kapitalı ilə İnönü Mahallesi Cumhuriyet Caddesi No.79/2 Şişli ünvanında qeydiyyata alınıb. Sənədlərə görə, ”Hazarturk”un 142.500 lirəlik hissəsi ilə 75 faizi keçmiş agentlik rəhbərinin həyat yoldaşına məxsusdur. Tikinti sektorunda fəaliyyət göstərən şirkətdəki hissələri idarə etmək üçün Akifə Mövsümova Cəlal Məmmədov adlı şəxsə vəkalət verib.

Akim Bədəlov həyat yoldaşının adına Almaniyada da biznes qurub. Berlində fəaliyyət göstərən ABMA GmbH-nin (Akim Bədəlov və Mövsümova Akifə ad-soyadlarının abbreviaturasıdır) 2018-ci ildə illik dövriyyəsi 672 702 dollar təşkil edib.

İcraçı direktor Arifə Mövsümovanın Türkiyədəki şirkətinə vəkalətnamə verdiyi Cəlal Məmmədovdur.

Şirkətin web səhifəsində (https://abma-europe.com/) qeyd olunub ki, ABMA MDB ölkələrinə və Türkiyəyə alternativ enerji istehsalı texnologiyaları və bərpa olunan enerji komponentləri satmaqdan əlavə, daşınmaz əmlak biznesi və avtomobillərin satışı ilə məşğuldur. Elə həmin mənbədən məlum olur ki, şirkətin üç fərqli ünvanda daşınmaz əmlakı var. Bunlardan biri - Berlində, şirkətin hüquqi qeydiyyatda olduğu Otto-Suhr-Allee 121-də ”Concorde” yataq mebel və dəstləri firmasına icarəyə verilmiş satış mərkəzi, digəri isə Drezdendə, Dölzschener Str. 47-də fəaliyyət göstərən HS Autopark avtomobil satışı və təmiri mərkəzi, üçüncüsü isə Drezdenin Mohorner Str. 21 ünvanındakı icarə məqsədli binadır.

Satış üçün avtomobillər əsasən Avropa Birliyi ölkələrinin auksion mərkəzlərindən alınır.

Maraqlıdır ki, Bədəlovun həyat yoldaşının Azərbaycanda qeydiyyatdan keçmiş ”Azgüntex” MMC-nin təsisçisi olduğu da açıqlanmışdı. Şirkət Sumqayıtdakı Azgüntex Günəş Modulları və Azgüntex LED Lampaları zavodlarını özündə birləşdirirdi.

Sabiq məmurun ölkədən kənarda çox sayda şirkət yaratması sual doğurmuşdu: Bədəlov öz biznesini bu qədər genişləndirməyi necə, hansı vəsait hesabına bacarmışdı? Yerli KİV-in fikrincə, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində büdcə vəsaitlərinin təyinatı üzrə xərcləndiyinə dair ciddi şübhələr bu sualın doğru cavabını tapmağa kömək edə bilər.Digər tərəfdən, hazırda Bədəlovun xaricdəki şirkətlərinin durumunun ürəkaçan olmadığına dair söz-söhbətlər dolaşır. Bildirilir ki, o, yüksək məmur postunu itirdikdən sonra həmin şirkətlərin fəaliyyəti kəskin zəifləyib, hətta bəziləri bağlanmaq riski ilə üz-üzədir. Hətta ”Hazarturk İnşaat ve Dış Ticaret Limited Şirketi”nin hazırda faktiki olaraq fəaliyyətsiz olduğuna dair də iddialar dolaşır.

Qeyd edək ki, iri məmurlarımızın öz postlarını itirdikdən sonra onların biznesinin çöküşə yuvarlanmasına təcrübədə tez-tez rast gəlinir. Bu isə səbəbsiz deyil: Azərbaycanda məmur biznesi vəzifə sahibinin statusu, nüfuzu, eləcə də büdcə vəsaitlərinin korrupsiya predmetinə çevrilməsi ilə birbaşa bağlıdır. Vəzifə əldən çıxırsa, biznes də ya əldən çıxır, ya da zəifləyir...

Sabiq Agentlik rəhbəri vəzifəsiz qaldıqdan bir müddət sonra onun ”Xəzər” Elmi və Texnoloji Mərkəzinin Direktorlar Şurasının sədri olduğu yazıldı. Milli Sağlamlıq Mərkəzinin inşasında ortaya çıxan problemlərdə Bədəlovun adının hallanması da bu baxımdan təəccüblü deyildi. Çünki tikintini “Xəzər” Elmi və Texnoloji Mərkəzinə daxil olan “Xəzər” Gənclərin Elmi-Texniki Yaradıcılıq Mərkəzi həyata keçirmişdi.

Bədəlova məxsus ”Xəzər” şirkəti ilə bağlı əsas qalmaqala isə bir qədər əvvəl ötəri toxunmuşduq. Məsələ burasındadır ki, bu şirkəti mərhum akademik Tofiq İsmayılov yaratmışdı. Onun övladları mediaya açıqlamalarında bildiriblər ki, Akim Bədəlov sonradan şirkəti ələ keçirib.

Tofiq İsmayılovun övladları ilə Akim Bədəlov arasında bu şirkətlə bağlı uzun illər mübahisə olub. Lakin Bədəlov vəzifədə olduğundan onlar istəklərinə çata bilməyiblər.

A.Bədəlov indiyədək nə bu qalmaqal, nə vəzifədə olarkən yol verdiyi ciddi nöqsanlar, nə də ölkə daxilində və onun hüdudlarından kənardakı nəhəng biznesi ilə bağlı yayılan xəbərlərə reaksiya verməyib. Sabiq məmur özü haqqındakı qalmaqallı iddiaları nə təsdiq, nə də təkzib edib.

***Sənan Mirzə***



## Müdafiə Nazirliyi ilə “Azərsilah” saziş imzaladı

***”ADEX-2024” və ”Securex Caspian” sərgiləri çərçivəsində sentyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyəti arasında birgə fəaliyyətlərin həyata keçirilməsi və qarşılıqlı əməkdaşlığın qurulmasına dair Anlaşma Memorandumu imzalanıb.***

Bu barədə “Unikal”a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, memorandum qurumlar arasında öz səlahiyyətləri daxilində fəaliyyət sahələrinə uyğun olaraq qarşılıqlı faydalı, uzunmüddətli, səmərəli əlaqələrin qurulması və inkişafı üçün əməkdaşlıq etmək, həmçinin bu istiqamətdə koordinasiyalı fəaliyyətlərin təşkili məqsədi daşıyır.

## Taksi dayanacaqlarının təşkil edilməsi ilə bağlı layihə hazırlanıb

***Bakının bir sıra küçə və prospektlərində 130-dan artıq taksi duracağı mövcuddur. Onların əksəriyyəti cəlbetmə məntəqələrində təşkil edilmədiyindən bəzən nəqliyyatın hərəkətinə manea yaradır. Buna görə də Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) hazırda məsələyə kompleks yanaşma tətbiq edir.***

AYNA-dan ”Unikal”a verilən məlumata görə, nəqliyyatın hərəkətinə manea yaradan məntəqələrin ləğv edilməsi, eyni zamanda yeni cəlbetmə məntəqələrinin müəyyənləşdirilməsi istiqamətində işlər aparılır. Yeni cəlbetmə məntəqələrinin əsasən universitetlərin, ticarət mərkəzlərinin, nəqliyyat mübadilə mərkəzlərinin ətrafında, həmçinin avtobus zolaqlarının yaxınlığındakı alternativ yollarda təşkil edilməsi nəzərdə tutulur.

Sakinlərin də müraciətləri nəzərə alınaraq artıq paytaxtın Tbilisi prospektində taksi minik avtomobilləri üçün dayanacaq, həmçinin minib-düşmə yerlərinin (drop off) təşkil edilməsi ilə bağlı təhlillər aparılıb və layihə hazırlanıb. Layihəyə əsasən, Tbilisi prospektində taksilərin dayana biləcəyi 6 məntəqə müəyyən edilib. Tezliklə işlərin icrasına başlanılacaq.

## “Bakı Sığorta”nın lisenziyası məhdudlaşdırıldı

***Azərbaycan Mərkəzi Bankı ”Bakı Sığorta” ASC-nin lisenziyasının qüvvəsini məhdudlaşdırıb.***

”Unikal” xəbər verir ki, bu barədə AMB məlumat yayıb. Bildirilib ki, “Sığorta fəaliyyəti haqqında” qanunun 105.1.1-ci maddəsinə müvafiq olaraq, şirkətin könüllü müraciəti əsasında “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası”, “Daşınmaz əmlakın icbari sığortası” və “Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası” növlərinə verilmiş icazələrin ləğv edilməsi yolu ilə lisenziyasının qüvvəsi məhdudlaşdırılıb.

33_27 IYUI-QARA.qxd 9/26/2024 10:15 PM Page 11



# Müəllimlərin maaşından bu vergilər tutulur



***Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin, habelə gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşı sonuncu dəfə 2023-cü il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb.***

Yeni dərs ilinin başlanması ilə əlaqədar müəllimlərin maaş məsələsi sosial şəbəkələrdəki təhsil qruplarında müxtəlif müzakirələrə səbəb olub. Bu müzakirələrdə müəllimlərin ödədikləri vergilər barədə də çox sayda suallar verilir.

**Müəllimlərin aldığı maaşdan hansı vergilər tutulur?**

"Unikal" məsələnin aktuallığını nəzərə alaraq, ona aydınlıq gətirməyə çalışıb. Vergi Məcəlləsinin 101.1-ci maddəsinə əsasən, 2500 manatadək olan aylıq gəlirlərdən 14% gəlir vergisi tutulur. "Sosial sığorta haqqında" Qanunun 14-cü maddəsinə əsasən, əmək müqaviləsi ilə işləyənlər üçün hesablanmış əməkhaqqının 3% miqdarında məcburi dövlət sosial sığorta haqqı ödənilməlidir. Qeyd olunanlardan əlavə, Həmkarlar İttifaqı Təşkilatı ilə bağlanmış müqaviləyə əsasən, əməkhaqqından 2% üzvlük haqqı tutulur.

Bundan başqa, müəllimlər işsizlikdən sığortaya görə 0,5%, icbari tibbi sığortaya görə 2% ödəniş də edirlər.

**Beləliklə, müəllimlərin əmək haqqından aşağıdakı vergilər tutulur:**

Gəlir vergisi - 14%;
Sosial sığorta - 3%;
Həmkarlar ittifaqı - 2%;
İşsizlikdən sığorta - 0,5%;
İcbari tibbi sığorta haqqı - 2%.

Bunları ümumilikdə hesabladıqda maaşdan 21,5 % tutulmalar olur.

Qeyd edək ki, əmək haqqı 2500 manata qədər olduqda, ondan ölkə üzrə yaşayış minimumu- 345 manat çıxıldıqdan sonra qalan məbləğdən 14% gəlir vergisi tutulur.

Vergi Məcəlləsinin 102-ci maddəsinə əsasən, bəzi kateqoriyadan olan işçilərin əməkhaqqından gəlir vergisi güzəştlə tutulur. Belə ki, I və II qrup əlillərin (müharibə əlillərindən başqa), sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin hər hansı işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin hər hansı işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır.

# 45 müharibə iştirakçısı polisə qəbul olundu

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 24-də və 25-də Yevlax Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.***

"Unikal" xəbər verir ki, nazir əvvəlcə Yevlax rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Yevlax, Kürdəmir, Ağdaş, Ucar, Mingəçevir şəhər və rayonlarından qəbula gələn 445 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Bərdədə yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonra general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

45 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 338 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Sonda daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

# Xəzəri hasarlayan oliqarxların mülkləri ilə bağlı müəmma

## Həftənin sualı: dənizin "ağzının içindəki" villalar söküləsi olmadı?

***Bu ilin I yarısında Azərbaycanda torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti tədbirləri çərçivəsində ölkə üzrə ümumilikdə 8 410 monitorinq həyata keçirilib və 3 104 pozuntu halı aşkar edilib. Bu barədə yola salmaq üzrə olduğumuz həftə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti məlumat yayıb.***

Bildirilir ki, aşkar edilən pozuntu hallarından 5-i dənizin 20-50 metrlik zolağının altında olan torpaq sahələrindən istifadə vəziyyəti ilə bağlı olub. Müəyyən edilən pozuntu halları üzrə aidiyyəti sənədlər tədbir görülməsi məqsədilə hüquq-mühafizə orqanlarına göndərilib.

Cari ayda aparılan monitorinqlər zamanı isə Bakının Səbail rayonunun, Namiq Quliyev küçəsində yerləşən "Şəfa" balıq evi və hasar qonşusu vətəndaş Rəcəb Abbasov tərəfindən Xəzər dənizinin mühafizə zolağına düşən ərazilərin zəbt olunduğu və hasarın çəkildiyi faktı aşkar edilib.

Qanunvericiliyin tələblərini təmin etmək məqsədilə görülmüş tədbirlər nəticəsində zəbt olunan ərazidə hasarların biri tam sökülüb, digərinin isə obyektin sahibi tərəfindən demontajına başlanılıb.

Qeyd edilir ki, torpaqlardan istifadəyə nəzarətin gücləndirilməsi, torpaq sahələrinin təyinatı üzrə istifadəsi, bu sahədə aşkar edilən pozuntuların aradan qaldırılması ilə bağlı müvafiq qanunvericiliyə uyğun olaraq Xidmət torpaqların səmərəsiz istifadəsinə və özbaşına zəbt olunmasına qarşı nəzarət tədbirləri həyata keçirir. Xidmət tərəfindən ölkə ərazisində torpaqlardan əsassız və qanunvericiliyə zidd istifadə halları, o cümlədən Xəzər dənizinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaq sahələrindən istifadə vəziyyəti ilə bağlı monitorinqlər aparılır.

Xatırladaq ki, Torpaq Məcəlləsinin tələblərinə əsasən Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında yerləşən torpaq sahələri dövlətin müstəsna mülkiyyətində qalmaqla özgəninkiləşdirilə bilməz. Yalnız dövlət məqsədləri üçün Nazirlər Kabinetinin qərarı ilə istifadəyə və icarəyə verilə bilər. Məcəlləyə əsasən istifadəyə və ya icarəyə verilən torpaq sahələri İqtisadiyyat Nazirliyinin, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış icazəsi əsasında dənizin sahilinə gedişgəlişi məhdudlaşdırmamaq şərti ilə hasara alınma yolu ilə və ya digər üsullarla bağlanıla bilər.

Onu da deyək ki, hələ 2022-ci il iyun ayının 13-də Buzovna sakinləri tarixi qayaların zəbt edilməsiylə bağlı Prezidentə müraciət ünvanlamışdılar. Onlar Xəzər sahilinin qısa müddətdə hasarlandığını və qayaların üzərində yeni tikililərin ucaldıldığını bildirmişdilər. Sakinlər dənizin yaxınlığında 20-50 metrlik zolağı özəlləşdirib ictimai istifadə üçün bağlamağın qanun pozuntusu olduğunu vurğulayaraq ölkə başçısının məsələyə müdaxilə etməsini xahiş etmişdilər.

Prezident bu hadisədən bir neçə gün sonra Xəzər dənizinin sahilboyu ərazilərinin qanunvericiliyin tələblərinə uyğun olaraq bərpa edilməsi və insanların dəniz sahilinə sərbəst giriş-çıxışının təmin edilməsi ilə bağlı Sərəncam verdi.

Ardınca isə məlumat yayıldı ki, Buzovnada dəniz sahilindəki qanunsuz hasar və tikililər sökülür. Həmin məlumat Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən təsdiqləndi. Qurumdan bildirildi ki, dəniz sahili ərazilərdəki vəziyyətlə bağlı Buzovna sakinlərinin müraciətləri ilə əlaqədar bu ərazilərdə aparılan inventarizasiya zamanı müəyyən edilib ki, vaxtı ilə, 10-15 il əvvəl burada bəzi insanlar tərəfindən dəniz kənarlarının hasarlanması, sahilə keçidlərin bağlanması, həmçinin qədim qayalıqların zibillənməsi hallarına yol verilib ki, bu da haqlı narazılıqlara səbəb olur. Bəzi yerlərdə sakinlər qanunsuz olaraq əlavə torpaq sahələrini zəbt edərək öz həyətlərinə birləşdiriblər.

Əmlak Məsələləri Dövlət Xidmətinin yola salmaq üzrə olduğumuz həftə yaydığı məlumatdan belə aydınlaşdı ki, 2 il öncə başlayan proses az da olsa davam edir. Lakin ümumilikdə prosesin vətəndaşları qane edəcək səviyyədə getdiyini



söyləmək mümkün deyil. Hələ də Xəzərin Bakı və Abşeronun müxtəlif istiqamətlərindəki hasarlar, həmin hasarların arxasındakı məmur, oliqarx villaları, obyektləri qalır. Hətta belə iddialar var ki, Xəzəri faktiki olaraq özününküləşdirən nüfuzlu vəzifə sahiblərinin dəniz sahilinə çəkdikləri hasarların sökülməsindən söhbət belə getmir. Bu isə şübhəsiz ki, ölkə başçısının 2 il öncə verdiyi Sərəncamın ruhuna ziddir.

Və sonda: əgər aidiyyatı qurumlar Xəzər dənizinin sahilboyu ərazilərinin qanunvericiliyin tələblərinə uyğun olaraq bərpa edilməsi və insanların dəniz sahilinə sərbəst giriş-çıxışının təmin edilməsi ilə bağlı həmin Sərəncamın tələblərini hər hansı ayrı-seçkiliyə yol vermədən, kiminsə vəzifəsinə, imtiyazına baxmadan yerinə yetirməyəcəyi təqdirdə haqqında danışdığımız problemin köklü həllindən, vətəndaşların məlum mövzuda şikayətlərinin, narazılıqlarının səngiməsindən danışmaq təəssüf ki, mümkün olmayacaq...

***Toğrul Əliyev***

**5.3.16. elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Təhsildə yenilik-Məktəblərin yenidən təşkil edilməsi nə vəd edir?



***Bu tədris ilindən etibarən ölkənin müxtəlif yerlərində ikiillik məktəblər fəaliyyətə başlayıb. Fəaliyyəti yenidən təşkil olunan məktəblərdə yalnız 10-11-ci siniflər təhsil alacaq. 2024/25-ci tədris ilində Elm və Təhsil Nazirliyi tərəfindən yeni icra olunan pilot layihə ölkədə bir neçə məktəbi əhatə edəcək. Məqsəd isə yenidən təşkil ediləcək məktəblərdə oxuyacaq şagirdlər üçün tam orta təhsil səviyyəsində uğur qazanmaları və mükəmməl şərait, eyni zamanda müasir tədris metodları ilə təmin etməkdir. Yeni təhsil metoduna uyğun olaraq yeni yaradılacaq məktəblərdə bütün şagirdlər digər məktəblərə köçürülüb.***

Layihəyə ölkəni əhatə edən bütün regional Təhsil idarələrinin nəzdində yerləşən məktəblərdən biri seçilib. Sözügedən təhsil ocaqlarında tədris prosesi şagirdlərin maraqlarına və qabiliyyətlərinə uyğun olaraq təmayül tədris planları əsasında təşkil ediləcək. Bu məktəblərdə tədris prosesi qrupdan asılı olaraq həftəlik 37 saat olmaqla 8 fənni əhatə edən proqramla tədris olunacaq və məktəbdə şagirdlər dövlət tərəfindən isti yeməklə təmin olunacaq. Məktəbdə oxuyacaq bütün şagirdlər həm dərslik həm də dərsdən kənar vəsaitlə və eyni zamanda nootbukla təmin olunacaq. Bu şagirdlərə dərslər və məşğələlər nüfuzlu və yüksək bal toplamış müəllimlər tərəfindən tədris olunacaq. Pilot layihəyə cəlb olunan məktəblərdə oxuyacaq şagirdlərin ali məktəbə yüksək balla daxil olmasına zəmanət veriləcək.

Qeyd edək ki, Sumqayıt şəhəri 27 saylı və Şəki Şəhər 6 nömrəli tam orta məktəblərin fəaliyyəti artıq yenidən təşkil olunub.

Təhsil üzrə ekspert Kamran Əsədov "Unikal" qəzetinə müsahibəsində bildirib ki, təmayülləşmə adlanan bu proses, tədris formasının tətbiqi ilə bağlıdır və qlobal trendlərə əsaslanaraq təhsilin daha ixtisaslaşmış istiqamətlərdə inkişafını təmin etmək məqsədi daşıyır. Onun sözlərinə görə, Azərbaycanda məktəblərin yenidən təşkil olunması, 11 illik məktəblərdə yalnız 10-11-ci siniflərin tədrisinin davam etməsi və digər siniflərin başqa məktəblərə köçürülməsi son dövrlərdə təhsil sistemindəki yeniliklərdən biridir: "Təmayülləşmə dedikdə, şagirdlərin 10-cu sinifdən etibarən ixtisas sahələrinə yönəldilməsi nəzərdə tutulur. Bu yanaşma daha çox şagirdlərin maraq və qabiliyyətlərinə uyğun təhsil almalarını təmin etmək məqsədilə tətbiq olunur. Məktəblərin təmayül üzrə ixtisaslaşması dünya təhsil sistemlərində də geniş şəkildə istifadə olunan bir mexanizmdir. Bu prosesin Azərbaycanda da tətbiq olunması, şagirdlərin ali təhsil seçimlərində daha hazırlıqlı olmasına şərait yaratmaq üçün nəzərdə tutulub".

Ekspert deyir ki, təmayülləşmə üzrə təhsil verən məktəblərin sayı 400-ə yaxın idi, yenilik ümumi məktəb sayının təxminən 9%-ni təşkil edir. Bu proses tədricən genişlənir və hər il daha çox məktəb təmayülləşməyə yönəlir. Məqsəd şagirdlərin təhsillərini ixtisaslaşmış təhsil ocaqlarında daha dərindən inkişaf etdirməkdir.

K. Əsədov bildirir ki, bəzən bu prosesə valideynlər narazılıq edir. Onların əsas narazılığı övladlarının fərqli məktəblərdə təhsil almasıdır. Çünki, bu logistika və ailənin gündəlik işlərini planlaşdırmada çətinliklər yaradır: "Məsələn, Bakı şəhərində yerləşən məktəblərdə bu dəyişikliklər valideynlərin bir məktəbdən digərinə getmək üçün daha çox vaxt sərf etməsinə səbəb olub, şəhərin tıxac problemi də buna əlavə yük yaradır. Amma bunun müsbət tərəfi ondadır ki, şagirdlər təmayül siniflərində öz ixtisaslarına uyğun daha dərin biliklər əldə edirlər. Məsələn, elmi təmayüllü siniflərdə şagirdlər riyaziyyat, fizika və kimya kimi fənlərə daha çox fokuslanır, bu da onlara gələcəkdə texniki və mühəndislik ixtisaslarını seçməyə kömək edir. İctimai təmayüllü siniflərdə isə tarix, coğrafiya və hüquq sahələri üzrə daha dərindən tədris həyata keçirilir".

K. Əsədov deyir ki, Finlandiya və Almaniya təhsil sistemləri dünya üzrə yüksək səviyyəli təmayülləşmə təcrübəsinə malikdir.

"Məsələn, Almaniyada "Gymnasium" adlı məktəblər daha akademik yönümlü şagirdlər üçün nəzərdə tutulub. Digər məktəblər isə peşə təhsili üzrə ixtisaslaşır. Finlandiyada isə təhsil şagirdlərin fərdi maraqlarına uyğun istiqamətləndirilir, bu da təhsilin keyfiyyətini artırır. Finlandiyada təmayülləşmə daha çevikdir, hər bir şagirdin maraq dairəsinə və qabiliyyətlərinə uyğun olaraq fərdiləşdirilmiş yanaşma tətbiq olunur. ABŞ-da da orta məktəblərin bir çoxu "magnet schools" və "charter schools" adlı xüsusi ixtisaslaşmış məktəblərdir. Bu məktəblər müəyyən sahələr üzrə, məsələn, incəsənət, texnologiya və elm istiqamətində ixtisaslaşır və şagirdlər bu məktəblərdə öz potensiallarını maksimum inkişaf etdirmək üçün daha əlverişli imkanlara malik olurlar", ekspert bildirir.

Müsahibimiz bildirir ki, Azərbaycanda 11 illik təhsilin tətbiqi üzrə müasir statistik məlumatlar ölkədə ümumtəhsil məktəblərinin 10%-dən çoxunun təmayülləşdiyini göstərir. Onun sözlərinə görə, şagirdlərin 30%-ə yaxını təmayül siniflərinə yönəldilib, bu da onların təhsillərində daha ixtisaslaşmış yanaşmaya şərait yaradır: "Qlobal statistikaya əsasən, təmayülləşmə sistemində təhsil alan şagirdlərin akademik nəticələri ümumi təhsil verən məktəblərdə oxuyanlarla müqayisədə daha yüksəkdir. Valideyn narazılıqları təhsil prosesindəki yeniliklərin təşkilatçılıq və idarəetmə məsələlərindən qaynaqlanır. Lakin təmayülləşmənin uzunmüddətli faydaları şagirdlərin gələcək akademik və peşəkar həyatında daha yüksək səviyyədə ixtisaslaşmasına gətirib çıxara bilər. Azərbaycan təhsil sisteminin daha müasir, qlobal trendlərə uyğunlaşdırılması təhsilin keyfiyyətini artırmağa yönəlib. Bununla belə, yerli təcrübədə belə dəyişikliklərin praktik icrası zamanı daha çox valideynlərə dəstək göstərmək və effektiv kommunikasiya yollarını inkişaf etdirmək vacibdir. Beləliklə, Azərbaycanda məktəblərin təmayülləşməsi şagirdlərə daha spesifik və ixtisaslaşmış təhsil almaq imkanı yaradır. Bununla belə, praktik problemlərin həlli və valideynlərin narahatlıqlarının diqqətlə nəzərə alınması vacibdir. Dünya təcrübəsi göstərir ki, təmayülləşmə təhsil keyfiyyətini artırır və şagirdlərin gələcək karyeralarına daha güclü təməl yaradır".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

The Coalition of Finance Ministers for Climate Action

## Azərbaycan İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyasına üzv olub

***Maliyyə Nazirliyi "İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyasına (The Coalition of Finance Ministers for Climate Action) tamhüquqlu üzv qəbul edilib.***

"Unikal" bu barədə nazirliyə istinadən xəbər verir. 92 ölkənin maliyyə nazirlərinin üzv olduğu Koalisiya 26 beynəlxalq təşkilatla institusional tərəfdaşlıq edir və həmin beynəlxalq təşkilatlar maliyyə nazirlərinin iqlim dəyişikliyi ilə bağlı siyasətlərin işlənib hazırlanması və həyata keçirilməsində səylərini dəstəkləməkdə əsas texniki və məsləhətçi rolunu oynayırlar.

Bu ilin aprel ayında Maliyyə Nazirliyi Beynəlxalq Valyuta Fondu (IMF) və Dünya Bankı Qrupunun ABŞ-ın paytaxtı Vaşinqtonda keçirilən Yaz Toplantıları çərçivəsində İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyasının 11-ci iclasında müşahidəçi statusunda iştirak edib.

Azərbaycanın COP ilə fəaliyyət istiqamətləri əksər hallarda üst-üstə düşən sözügedən Koalisiyada tamhüquqlu üzv kimi təmsil olunması ölkəmizin COP29 sədrliyinin hədəflədiyi nəticələrin əldə edilməsinə mühüm töhfə verəcək.

Koalisiya üzvlərinin növbəti görüşü gələn ay Vaşinqtonda IMF və Dünya Bankı Qrupunun İllik Toplantıları çərçivəsində keçiriləcəkdir.Noyabrda Azərbaycanın ev sahibliyi edəcəyi COP29 Konfransının "Maliyyə günü" çərçivəsində Koalisiyanın xüsusi iclasının keçirilməsi barədə də ilkin razılıq əldə olunub.

## Dövlət Dəniz və Liman Agentliyində "Açıq qapı" günü keçirilib

***Dövlət Dəniz və Liman Agentliyində dənizçilər üçün "Açıq qapı" günü keçirilib.***



"Unikal" xəbər verir ki, rəhbər heyətin iştirak etdiyi görüşdə son aylarda qurumun həyata keçirdiyi islahatlar barədə məlumat verilib. Bildirilib ki, tətbiq olunan yeniliklərin mərkəzində vətəndaş məmnunluğu, dövlət xidmətlərinin əlçatanlığı və şəffaflığın təmin edilməsi dayanır.

Qeyd olunub ki, yaxın vaxtlarda müvafiq sahəni tənzimləyən beynəlxalq hüquqi aktların tələbləri nəzərə alınmaqla dənizçilərin sertifikatlaşdırılması ilə bağlı prosedurların sadələşdirilməsi istiqamətində bir sıra dəyişikliklər olacaq.

Görüşdə dənizçiləri maraqlandıran suallara cavab verilib və müxtəlif mövzularda fikir mübadiləsi aparılıb.

Dövlət Dəniz və Liman Agentliyində "Açıq qapı" günlərinin mütəmadi olaraq keçirilməsi nəzərdə tutulub. Bu barədə qurumun rəsmi saytında və sosial şəbəkə hesablarında məlumat veriləcək.

33_27 IYUl-QARA.qxd 9/26/2024 10:15 PM Page 13



# Cəbrayıla yola düşən ilk köç karvanı doğma yurda çatdı

***31 ildən sonra Cəbrayıl şəhəri öz doğma sakinlərinə qucaq açıb. Böyük Qayıdış proqramı üzrə Cəbrayıl şəhərinə ilk köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.***



”Unikal” xəbər verir ki, Cəbrayıl şəhəri ilk köç prosesində 36 ailə olmaqla, 117 nəfərə qucaq açıb. Şəhərə qədəm qoyan ailələr böyük coşqu ilə qarşılanıb və Cəbrayıl şəhərində yaradılan gözəlliyi seyr ediblər.

Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, köçürülən ailələrin Cəbrayıl şəhərində dövlətimizin başçısının göstərişi əsasında yenidən tikilən binalarda məskunlaşması üçün bütün şərait yaradılıb.



# İki vəzifəli şəxs cəzalandırıldı

***Lənkəran rayonunda, Şirvan şəhərində yerləşən tullantı poliqonlarında və Xocalı rayonu ərazisində Xocalı-Xankəndi avtomobil yolunun kənarında yerləşən maye-qaz doldurma məntəqəsinin yaxınlığında tullantılar qalaqlanaraq yandırılıb.***

Bu barədə ”Unikal”a Dövlət Ekoloji Təhlükəsizlik Xidmətindən məlumat verilib.

Bildirilib ki, faktlarla bağlı Lənkəran Mənzil İstismar Kommunal Müəssisələr İdarəsinin rəisi Rövşən Lətifov və Şirvan Kommunal Kombinatı Müəssisəsinin rəisi Azər Abdıyev barəsində vəzifəli şəxs qismində, Füzuli rayonu Bəhmənli kənd sakini Rəhman Bayandurov barəsində isə fiziki şəxs qismində protokol tərtib olunub.

Sözügedən şəxslər inzibati məsuliyyətə cəlb ediliblər.

# Müharibə iştirakçılarının 60 min manatını ələ keçirən şəxs həbs edildi



***Nəsimi Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri tədbirlər zamanı ayrı-ayrı vətəndaşların vəsaitlərini dələduzluq yolu ilə ələ keçirən Əhməd Abdulkərimov saxlanılıb.***

DİN-dən ”Unikal”a verilən məlumata görə, araşdırmalarla onun özünü dövlət qurumlarından birinin keçmiş əməkdaşı və hüquq müdafiəçisi kimi təqdim edərək əsasən müharibə iştirakçılarını güzəştli mənzil, avtomobil,sığorta pulu,əlilliklə bağlı verilən məvacibi müddətsiz edəcəyi adı altında aldadaraq zərərçəkənlərin ümumilikdə 60 min manata yaxın pulunu ələ keçirdiyi müəyyən olunub.

Faktla bağlı Nəsimi RPİ-də Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Ə.Abdulkərimov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. İş üzrə istintaq hərəkətləri davam etdirilir. Bu şəxsin qanunsuz əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa polis orqanlarına müraciət edə bilərlər.

# "Milli su strategiyası təsdiq mərhələsindədir" - ADSEA

***Azərbaycanda Milli Su Strategiyası hazırlanıb və Nazirlər Kabinetində təsdiq mərhələsindədir.***

”Unikal” xəbər verir ki, bunu Xəzər Su İnnovasiya Forumunda panel müzakirəsi zamanı Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) Elm və İnnovasiyalar sektorunun müdiri Əliağa Əzizov deyib.

”İlk addım olaraq bu sahədə elm və innovasiya məsələsinə baxmalıyıq. İctimaiyyəti, tələbələri və müəssisələri cəlb edərək araşdırma aparmalıyıq. Bu sahədə kifayət qədər yerli ekspertimiz yoxdur. Ona görə də əlavə dəstəyə ehtiyacımız var. Bununla bağlı Niderland tərəfini də cəlb etməyə çalışırıq”, - deyə o əlavə edib.

# Xaricdə ali təhsil almış şəxslər üçün peşə tanınması üzrə imtahan keçiriləcək

***Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2306 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları”na əsasən müəllimlik, mühəndislik və hüquq ixtisasları üzrə ərizəçinin Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sifarişi ilə Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi imtahanda müvəffəqiyyət qazanması (keçid balını toplaması) tələb olunur.***

Bu barədə “Unikal”ya DİM-dən məlumat verilib.

Bildirilib ki, peşə tanınması üzrə növbəti imtahan 6 oktyabr 2024-cü il tarixində DİM-in elektron imtahanlar korpusunda kompüterlər vasitəsilə keçiriləcək.

İmtahan saat 13:00-da başlanır. Saat 12:45-dən sonra gələn iştirakçılar imtahana buraxılmırlar. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş ərizəçilər oktyabrın 1-dən etibarən DİM-in internet saytına daxil olaraq “İmtahana buraxılış vərəqəsi”ni çap etməlidirlər. Buraxılış vərəqəsində imtahan yeri, binası, imtahana gəlməli olan vaxt və digər zəruri məlumatlar göstərilib.

İştirakçılar imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

şəxsiyyəti təsdiq edən sənədin əsli;

“İmtahana buraxılış vərəqəsi”.

Ərizəçilər ixtisasları üzrə proqramla müvafiq linklərə (“Müəllimlik”, “Mühəndislik”, “Hüquq”) keçid etməklə tanış ola bilərlər.

Təqdim edilən proqram üzrə ərizəçilərin ixtisas biliklərinin yoxlanılması ilə yanaşı, onların ümumpeşə biliklərinin müəyyən edilməsi, məntiqi düşünmə və situasiya-mühakimə test tapşırıqları vasitəsilə davranış səriştələrinin qiymət-



ləndirilməsi də nəzərdə tutulur.

İmtahanda iştirakçılara 30 test tapşırığı təqdim olunur. Hər doğru cavab bir balla, səhv və ya cavab verilməyən tapşırıqlar sıfır balla qiymətləndirilir. Ərizəçinin imtahanda müvəffəqiyyət qazanması üçün ən azı 15 bal toplaması tələb olunur. Namizədlər imtahanı yekunlaşdırdıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda nəticələrlə tanış olmaq imkanına malik olurlar. Nəticələr həmçinin növbəti gün DİM-in saytına yerləşdirilir.

# Nazir müavini: Son altı ildə əmək müqavilələrinin sayı 44% artıb

***Son 6 il ərzində əmək müqavilələrinin sayı 44% artıb.***

“Unikal” xəbər verir ki, bunu Bakıda ”İqlim dəyişmələri və ədalətli keçid: Həmkarlar İttifaqlarının rolu və fəaliyyətləri” mövzusunda keçirilən beynəlxalq konfransda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev deyib. O bildirib ki, 2018-ci ildən sonrakı dövrdə 4 mln şəxsi əhatə edən, illik əlavə maliyyə vəsaiti 7 milyard manat (təqribən 4,1 milyard ABŞ dolları) olan 4 sosial islahat paketi həyata keçirilib: ”Bu dövrdə sosial ödənişlər 2,5 dəfə, minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya 2,4 dəfə, sosial müavinət və təqaüd ödənişləri 5 dəfə, orta aylıq əməkhaqqı 84%, median əməkhaqqı 2,2 dəfə, minimum əmək haqqı 2,7 dəfə və əmək haqqı fondu 2,8 dəfə artırılıb”.

O əlavə edib ki, əmək münasibətlərin tənzimlənməsi və qeyri-formal məşğulluqla mübarizə sahəsində həyata keçirilən tədbirlər nəticəsində son 6 il ərzində əmək müqavilələrinin sayı 44% və ya 563 min artıb.

# Ağsuda 2024-cü ilin yanvar-iyun aylarında sənaye və ticarətin əsas göstəriciləri

Sənaye. 2024-cü ilin yanvar-iyun aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi əvvəlki ilə nisbətən sabit qiymətlərlə 2,5 faiz artaraq 26920,5 min manat olmuşdur. Əvvəlki ilin müvafiq dövründə isə 26252,9 min manat olmuşdur.

Ticarət. 2024-cü ilin yanvar-aiyun aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi 99170,5 min manat olmuş, əvvəlki ilə nisbətən faktiki qiymətlərlə 99209, 1 min manat olmaqla 0,2 faiz azalmışdır.

***Ağsu Rayon Statistika İdarəsinin baş məsləhətçisi Leyla Cəbrayılova***

33_27 IYUl-QARA.qxd 9/26/2024 10:16 PM Page 14



# Əkrəm Şadmanovun şəhadətinin ildönümü münasibətilə anım tədbiri keçirildi

***2-ci Fəxri Xiyabanda şəhid hərbçi Əkrəm Şadmanovun xatirəsi şəhadətinin ildönümündə yad edilib.***

Anım tədbirində Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev, rayonunun hüquq mühazifə orqanlarının rəhbərləri, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Rayon İcra Hakimiyyətinin, Yasamal bələdiyyəsinin və YAP Yasamal rayon təşkilatının əməkdaşları, şəhidin ailə üzvləri, qazilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak edib.



"Unikal" xəbər verir ki, ilk öncə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Dövlət Himni səsləndirilib. Sonra natiqlər şəhid polkovnik-leytenant Əkrəm Şadmanov həyat və fəaliyyəti haqqında xoş xatirələrini bölüşərək göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını ifadə ediblər.

Çıxışlardan sonra şəhid polkovnik-leytenant Əkrəm Şadmanovun məzarı ziyarət olundu, məzarı önünə gül dəstələri qoyulduu, ruhuna dualar oxundu.Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov şəhidin yaxınlarına dərin hüznlə başsağlığı verdi.

Qeyd edək ki, Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şadmanov Əkrəm Yunus oğlu sağlığında "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları, şəhadətindən sonra isə "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

# "Qarabağ bizim onurğa sütunumuzdur" - Mehriban Ələkbərzadə

***"Qarabağ bizim onurğa sütunumuzdur. Bu gün biz bu ərazilərin torpaqdan yurda çevrilməsinin şahidiyik. Qayıdış sevgi ilə həyata keçirilir. Bu sadəcə nə vaxtsa yaşadığın torpaqlara qayıdış deyil, bu yurduna qayıdışıdır, doğma yurdunda ocaq yandırmaq həsrəti idi. Biz orada əbədi olacağıq".***

"Unikal" xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, teatr və kino rejissoru Mehriban Ələkbərzadə deyib. Onun fikrincə, işğaldan azad olunmuş ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışı yenidən doğulmağa bərabərdir.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, ilk növbədə, müasir infrastruktur formalaşdırılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır. Dövlət Komitəsi tərəfindən məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri həyata keçirilir. Bu çərçivədə, işğaldan azad edilmiş ərazilərdən olan ziyalıların, gənclərin və müxtəlif peşə sahiblərinin iştirakı ilə videoçarxlar hazırlanır. Hazırlanmış materiallarda keçmiş məcburi köçkünlərin böyük sevinc və qürur hissi ilə, könüllü şəkildə doğma yurdlarına qayıdışı fikirləri təşviq olunur.



Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadənin iştirakı ilə hazırlanmış videoçarxı təqdim edirik.

# Gəmilərin sıravi heyət üzvlərinə təqdim olunan sertifikatlar "Bakı KOB evi"ndə veriləcək

***Dövlət Dəniz və Liman Agentliyi tərəfindən gəmilərin sıravi heyət üzvlərinə təqdim olunan sertifikatların (diplomların) verilməsi prosesi 30 sentyabr 2024-cü il tarixindən etibarən "Bakı KOB evi"ndə həyata keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu prosesə gəmilərin sıravi heyət üzvlərinə sertifikatların (diplomların) ilk dəfə verilməsi, həmçinin yenilənməsi üzrə sənəd qəbulu və hazır sənədlərin verilməsi daxildir.

**Bunun üçün aşağıdakı sənədlər tələb olunur:**

- şəxsiyyəti təsdiq edən sənəd;
- ixtisas diplomu;
- sertifikat (diplom) (əgər varsa);
- Dövlət Dəniz və Liman Agentliyi tərəfindən uyğunluq haqqına şəhadətnamə verilmiş tibb müəssisəsinin verdiyi dənizçinin tibb sertifikatı;
- tələb olunan xüsusi hazırlıq şəhadətnamələri;
- ümumvətəndaş pasportu (ehtiyac olarsa);
- dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd (qəbz);
- üzmə haqqında arayış və ya təcrübə jurnalı;
- 3x4 sm ölçüdə, ağ fonda rəngli fotoşəkil (2 ədəd).

Qeyd edək ki, qəbul olunmuş sənədlər əsasında sertifikatlar (diplomlar) beş iş günü müddətində hazırlanaraq təhvil veriləcək.

Məlumat üçün bildirək ki, hazırda dənizçilərə təqdim olunan sertifikatlar (diplomlar) "Bakı KOB evi" ilə yanaşı, Agentlikdə də verilir. Növbəti mərhələdə isə bu prosesyalnız "Bakı KOB evi"ndə təşkil olunacaq.

# Ağsuda 2024-cü ilin yanvar-iyun aylarında xidmətin, rabitənin və nəqliyyatın əsas göstəriciləri

***Xidmət. 2024-cü ilin yanvar-iyun ayları ərzində əhaliyə göstərilən ödənişli xidmətin həcmi 19895.4 min manat olmuş və bu da əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 1720.4 min manat (6.9 faiz) çox olmuşdur.***

Rabitə və informasiya. Hesabat dövründə rabitəçilər tərəfindən müəssisə və təşkilatlara, habelə əhaliyə faktiki qiymətlərlə 531.7 min manatlıq rabitə və informasiya xidmətləri göstərilmiş və bu da əvvəlki dövrə nisbətən 45.2 faiz artmışdır.

Nəqliyyat. Hesabat dövründə nəqliyyat sektorunda faktiki qiymətlərlə məhsul buraxılışının həcmi (fiziki şəxslər də nəzərə alınmaqla) 2620.8 min manat olmuş və əvvəlki dövrlə müqayisədə 7.1 faiz artmışdır.

*Ağsu Rayon Statistika İdarəsinin baş məsləhətçisi*
*İkram Rzayev*

# Yaddaşı gücləndirən qidalar

***Güclü yaddaşa sahib olmaq üçün qidalanmaya diqqət etmək lazımdır.Unutqanlığın qarşısını almaq üçün xüsusi olaraq istehlak etməli olduğumuz bəzi qidalar vardır. Bununla belə, güclü yaddaşın düşməni olan bəzi qidalar var. Ümumiyyətlə hər süfrədə olan və tez-tez istehlak edilən bəzi qidalar beyin sağlamlığına mənfi təsir göstərə bilər.***



"Unikal" yaddaşı gücləndirən bəzi qidaları təqdim edir:

**Su:**

Su insan orqanizmində əhəmiyyətli rola malikdir. Belə ki, su metabolizm prosesində, bədən istiliyinin tənzimlənməsində, normal osmotik təzyiqin və elektrolit balansın qorunmasında iştirak etməklə yanaşı, su qanda, sümükdə və beyində optimal nəm səviyyəsini saxlamağa kömək edir. Su beyinin normal funksiyasının bərpa olunmasında mühüm rol oynayır.

**Meyvə-tərəvəz:**

Meyvə-tərəvəzlər orqanizmin mineral maddələr və vitaminlərlə təmin olunmasında əvəzsiz qida məhsuludur. Təzə meyvə-tərəvəz ilboyu gündəlik qidanın tərkibinə mütləq daxil olmalıdır. Mövsümi meyvə və tərəvəzlərin mütəmadi istehlakı zehni qabiliyyətin inkişafına, yaddaşın güclənməsinə müsbət təsir göstərir. Xüsusilə də bəzi rəngdə olan meyvə-tərəvəzin istehlakı daha faydalı sayılır. Məsələn, qırmızı çuğundurda olan antosian, badımcana bənövşəyi rəng verən nasunin beyin toxumasının lipidlərini qoruyur. Tünd yaşıl rəngli tərəvəzlərdə olan fol turşusu, eləcə də almanın qabığındakı antioksidantlardan kversetin yaddaş zəifliyinin qarşısını alır.

**Balıq:**

Somon, qızılbalıq, sardina, siyənək kimi balıq növləri daha yüksək qida dəyərinə malikdir. Həmçinin, bu balıq növləri Omeqa-3 yağ turşuları və B6 vitamini ilə olduqca zəngindir. Zehni qabiliyyətin inkişafı, yaddaşı gücləndirmək və ya bərpa etmək üçün onların istehlakına daha çox üstünlük verilməlidir. Bu balıq növləri Alzheimer xəstəliyinin inkişaf riskini azaltmaq, yaşla bağlı idrak geriliyinin qarşısını almaq baxımından da faydalıdır.

**Yumurta:**

Zəngin biokimyəvi tərkibə malik olan yumurta qida rasionunda əsas yer tutmalıdır. Xüsusilə də yüksək protein tərkibli olması səbəbindən beyin hüceyrələrinin inkişafında mühüm rol oynayır. Yumurtanın tərkibindəki aminturşuları beyin hüceyrələrini qidalandıraraq yaddaşın güclənməsinə kömək edir.

**Çərəzlər və toxumlar:**

Çərəzlər zəngin tərkibi baxımından orqanizmin gündəlik vitamin və mineral maddələrə olan tələbatını ödəyir. Beyinin fəaliyyətini yaxşılaşdırmağa, zehni qabiliyyətin inkişafına müsbət təsir etdiyindən istehlakı tövsiyə olunur.

**Paxlalılar və taxıl:**

Paxlalıların tərkibində müxtəlif qida maddələri üstünlük təşkil edir. Paxla, soya, mərci, noxud, yerfıstığı və digər bu tip qidaların müntəzəm istehlakı yaddaş zəifliyinə xeyirlidir.

**Çay:**

Düzgün dəmlənmiş çayın faydalı xüsusiyyətləri çoxdur. Son tədqiqatlar göstərir ki, çayın tərkibindəki antioksidant xüsusiyyətli polifenollar dopamin və adrenalin kimi neyrotransmitterlərin parçalanmasını zəiflədir, xüsusilə də yaddaşı və idrak qabiliyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

**Adaçayı:**

Beyinin fəaliyyətinə müsbət təsir edən bitkilərdən biri də adaçayıdır. Bu bitki beyin toxumasındakı biokimyəvi birləşmələrin səviyyəsini optimallaşdırır. Həmçinin beyin hüceyrələrinin bərpasında regenerativ rol oynayır.

**Rozmarin (bibəriyyə):**

Rozmarin beyin yorğunluğuna yaxşı təsir edir. Araşdırmalara görə, antioksidantlar və karnos turşusu ilə zəngin olan rozmarin bitkisi beyinin funksiyasını əhəmiyyətli dərəcədə yaxşılaşdırır, zehni qabiliyyətin inkişafını 18 faizədək artırır. Hətta sübut olunub ki, ofisdə saxlanan rozmarinin qoxusu çalışanların əhvalını yüksəldir, yorğunluğu aradan qaldırır, həmçinin yaddaşı gücləndirir.

**İspanaq:**

Müxtəlif vitaminlər, antioksidantlar və liflərlə zəngin olan ispanağın istehlakına daha çox üstünlük verilməlidir. İspanaq tərkibindəki faydalı maddələr sayəsində sinir sisteminə sakitləşdirici təsir göstərir, qavramanı, zehni qabiliyyəti yaxşılaşdırır, motoriki (hərəki) aktivliyin inkişafına səbəb olur, eləcə də beyin damarlarının zədələnməsinə qarşı orqanizmin müqavimətini artırır.

**Yer armudu:**

Yer armudu orqanizm üçün çox faydalı bitkidir. Tərkibinin B6 vitamini, karbohidrat və antioksidantlarla zəngin olması baxımından beyinin funksiyasını xeyli yaxşılaşdırır, yaddaşı daha da möhkəm edir.

*Zərifə Nağıyeva*

33_27 IYUI-QARA.qxd 9/26/2024 10:16 PM Page 15





## "Ukrayna artıq yoxdur" - Tramp

***Ukrayna artıq yoxdur. Bunu ABŞ-nin keçmiş prezidenti Donald Tramp deyib.***

Onun sözlərinə görə, Ukrayna artıq bitib, Ukrayna prezidenti Volodimir Zelenski isə Rusiyaya qarşı mübarizə üçün daha çox hərbi yardım istəyir: "Biz müqavilə imzalamaqdan imtina edən adama milyardlarla dollar ayırmağa davam edirik. Ukraynanın indiki vəziyyətdən daha pis razılaşma variantı yox idi. Ukrayna artıq yoxdur. Bizim elə bir ölkəmiz var ki, onu müharibədən əvvəlki vəziyyətinə qaytarmaq mümkün olmayacaq. Mən prezident olmasam, bu müharibə davam edəcək".

Tramp Rusiyanın hərbi gücünü bir daha xatırladıb və prezident olacağı təqdirdə münaqişəyə son qoya biləcəyini bəyan edib.

## Gürcüstan 2030-cu ilə qədər Avropa İttifaqına üzv ola bilər



***Gürcüstan hökumətin praqmatik siyasəti sayəsində 2030-cu ilə qədər Avropa Birliyinə üzv ola bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstanın baş naziri İrakli Kobaxidze BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilən 79-cu sessiyasındakı çıxışında bildirib.

"Biz optimistik və inanırıq ki, Gürcüstanın Avropa İttifaqına tamhüquqlu üzv olmaq istəyi 2030-cu ilə qədər reallaşacaq", - Kobaxidze deyib.

O, həmçinin "sülhün qurulmasını və davamlı inkişafı təmin etmək" üçün tərəfdaşlarla birgə səyləri davam etdirəcəyini vəd edib: "Biz sülhün qiymətini anlayırıq. Biz öz regionumuzu, Cənubi Qafqazı münaqişə zonasından imkanlar bölgəsinə çevirmək üçün bütün səyləri göstəririk".

Ukraynadakı münaqişəyə toxunan Kobaxidze əmin edib ki, Gürcüstan Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü dəstəkləməkdə davam edir.

## İsraildəki müharibədən qaçdı, Ukraynada öldü

***Moskva Dövlət Universitetinin Fəlsəfə fakültəsinin tələbəsi Anton Vydra Rusiyada döyüş bölgəsində ölüb.***

"Unikal" xəbər verir ki, bu barədə universitet məlumat yayıb. Qeyd olunub ki, tələbə İsraildəki müharibədən sonra Rusiyaya sığınıb. Burda isə onu Ukraynadakı müharibəyə aparıblar.

Fəlsəfə fakültəsinin dekanı Aleksey Kozırev bildirib ki, tələbənin ikili vətəndaşlığı var. O, xüsusi olaraq səfirliyə gedib və özünü daha çox rus kimi təqdim etdiyi üçün İsrail vətəndaşlığından imtina edib: "Bundan sonra Vydra akademik məzuniyyət götürdü və könüllü olaraq Donbasa getdi".

**Səhifəni Ağarza Elçinoğlu hazırladı**

# "Sülh müqaviləsini COP29-a qədər imzalaya bilərik" - Paşinyan

***"Mən və rəhbərlik etdiyim hökumət regionumuzda münaqişəyə son qoymaq və mövcud dinamikanı firavanlıq, sabitlik və sülh naminə əməkdaşlığa çevirmək öhdəliyimizə sadiqik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan BMT Təhlükəsizlik Şurasının təşkil etdiyi "Sülh naminə liderlik" sammitində çıxışı zamanı deyib.



Onun sözlərinə görə, Birləşmiş Millətlər Təşkilatı dövlətlərarası münasibətlərdə gücdən istifadənin, təcavüz aktlarının, insan hüquqlarının və beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasının normal hesab edildiyi vəziyyətlərin yaradılması cəhdlərinə qarşı durmalıdır: "Bugünkü müzakirəmizin mövzusu "Sülh naminə liderlik" olduğundan, sülhün liderlik və həqiqi siyasi cəsarət tələb etdiyinə inandığımı bölüşmək istəyirəm.

Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamağa hazırdır. Erməni tərəfi sülh müqaviləsinin artıq razılaşdırılmış maddələrinin Bakıda keçiriləcək COP29-a qədər imzalanmasını və bununla da sülh prosesinin inkişafı üçün stimullaşdırıcı mühitin yaradılmasını təklif edib.

Ermənistan hökumətinin "Sülh yollarının kəsişməsi" təşəbbüsü regionun iqtisadi potensialını açmaq və iqtisadi və mədəni əlaqələri gücləndirmək, bununla da bütün xalqların rifahı naminə siyasi dialoqu və hərtərəfli sülhün əldə olunmasını təşviq etmək məqsədi daşıyır. Biz müsbət impulsdan istifadə etməyə və 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanan demarkasiya komissiyalarımız arasında nizamlanma əsasında sərhədin demarkasiyası prosesini davam etdirməyə hazırıq.

Ermənistanın regionda ədalətli və davamlı sülhün bərqərar olması səylərinə Birləşmiş Millətlər Təşkilatı tərəfindən güclü və birmənalı dəstək son dərəcə vacibdir".

Qeyd edək ki, rəsmi Bakı bundan əvvəl qeyd edib ki, Ermənistan tərəfinin "sülh sazişi" layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

# Putin dünyaya növbəti xəbərdarlığını etdi

***Rusiyaya doğru aerokosmik hücum silahlarının buraxılması ilə bağlı etibarlı məlumat nüvə reaksiyasına səbəb olacaq.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının nüvədən çəkindirmə üzrə daimi iclasında deyib.

"Rusiyanın nüvə silahından istifadəyə keçməsi üçün şərtlər açıq şəkildə göstərilib. Aerokosmik hücum silahlarının kütləvi şəkildə buraxılması və onların dövlət sərhədimizdən keçməsi barədə etibarlı məlumat əldə etdikdən sonra biz bu imkanı nəzərdən keçirəcəyik", - deyə dövlət başçısı qeyd edib. Putin qeyd edib ki, aerokosmik hücum dedikdə taktiki və strateji təyyarələr, qanadlı raketlər, pilotsuz uçuş aparatları, hipersəs və digər təyyarələr nəzərdə tutulur.



# Gürcüstan Bakı və İrəvana regional əməkdaşlıq formatı təklif etdi

***Gürcüstan Ermənistanla Azərbaycan arasında münasibətlərin sülh yolu ilə nizamlanması prosesini alqışlayır və iki ölkəyə münasibətlərin tənzimlənməsi üçün regional əməkdaşlıq formatını təklif edir.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstanın baş naziri İrakli Kobaxidze Nyu-Yorkda BMT Baş Assambleyasının 79-cu sessiyasında çıxışı zamanı bildirib.



"Sülhün vacibliyini dərk edərək, biz Cənubi Qafqaz regionunu münaqişə bölgəsindən imkanlar bölgəsinə çevirmək səylərində aparıcı rol oynamışıq. Biz Ermənistan və Azərbaycan arasında sülh yolu ilə nizamlanma prosesini, xüsusilə qonşu dövlətlərlə münasibətlərin nizamlanmasına yönəlmiş səyləri alqışlayırıq.

Biz fikir ayrılıqlarının keçmişdə qalacağına və regionun resurslarının və üstünlüklərinin dünyaya təqdim olunmasına zəmanət vermək üçün ölkələr arasında əməkdaşlıq və etimadın qurulmasını dəstəkləyən regional əməkdaşlıq formatını təmin etmək istəyirik", - deyə Baş nazir qeyd edib.

# ABŞ Ermənistana 250 milyon dollar qrant ayıracaq

***Ermənistan hökuməti sentyabrın 26-da keçirilən iclasda ABŞ ilə sentyabrın 10-da imzalanmış inkişaf əməkdaşlığı qrant sazişinə bir nömrəli düzəlişi təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Bu dəyişikliyə görə, ABŞ-nin Ermənistana göstərdiyi yardımın ümumi məbləği 130 milyon dollar artaraq, 250 milyon dollara çatdıracaq.

Fəlakət risklərinin idarə edilməsi, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi, regional əməkdaşlıq və ticarət, demokratik proseslər və inklüziv iqtisadi inkişaf kimi əsas sahələr üçün əlavə maliyyə ayırmaları planlaşdırılır.

Qeyd edək ki, Ermənistan hökuməti 1992-ci ildən ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə əməkdaşlıq edir.

33_27 IYUl-QARA.qxd 9/26/2024 10:16 PM Page 16



# "Ən yaxşı oyunçulara heyvan kimi yanaşırlar" - Tyerri Anri

***Fransa millisinin və "Arsenal"ın (London) sabiq hücumçusu Tyerri Anri müasir futboldakı sıx təqvimdən şikayət edib.***

"Unikal" xəbər verir ki, o, Britaniya mediasına müsahibəsində deyib: "Onlar həddindən artıq çox oyun oynayırlar. Dünyanın ən yaxşı oyunçularına heyvan kimi yanaşırlar. Əvvəlki illərlə müqayisədə builki Avropa çempionatı sizin xoşunuza gəldi? Ən yaxşı oyunçuların əksəriyyəti meydanda yorğun görünür. Onların bir çoxu sanki oyun sevincini itirib".



Qeyd edək ki, Avropanın bir çox tanınmış mütəxəssisi (başda Xosep Qvardiola olmaqla) FIFA və UEFA-nın oyunların sayını çoxaltmasından narazılıq ifadə edib və bunun futbolçuların tez-tez zədə almasına, yorulmasına gətirib çıxardığını deyib.

# Messi "İnter Mayami" ilə müqavilənı yeniləməyəcək

***Argentina millisinin futbolçusu Lionel Messi "İnter Mayami" klubu ilə müqaviləni yeniləməyəcək.***

"Unikal" xəbər verir ki, hücumçu 2025-ci ilin sonunda ABŞ təmsilçisindən ayrılacaq. Bildirilib ki, 37 yaşlı oyunçu futbolda ilk addımlarını atdığı "Nyuells Old Boys"da karyerasını başa vurmaq üçün vətənə qayıtmaq niyyətindədir.

Qeyd edək ki, L.Messi 2023-cü ilin yayında "İnter Mayami"yə keçib. O, bu dövrdə meydana çıxdığı 32 oyunda 27 qol və 17 məhsuldar ötürmə edib.



# "Araz-Naxçıvan" Vitali Borisovu göndərdi

***"Araz-Naxçıvan" futzal komandasında baş məşqçi dəyişikliyi edilib.***

Azərbaycan Futzal Federasiyasından "Unikal"a verilən məlumata görə, klubdaxili iclas zamanı komandanın UEFA Çempionlar Liqasındakı çıxışı müzakirə olunub və nəticə qeyri-qənaətbəxş hesab olunub.

Buna görə də baş məşqçi Vitali



Borisovla qarşılıqlı razılıq əsasında müqaviləyə xitam verilib. Baş məşqçi vəzifəsinin icrası müvəqqəti olaraq Predraq Rayiçə həvalə olunub. V. Borisov Azərbaycan millisinin baş məşqçisi kimi işini davam etdirəcək.

Qeyd edək ki, Vitali Borisov və Predraq Rayiç 2023-cü ilin iyulundan Azərbaycan millisində və "Araz-Naxçıvan"da çalışırdı. Borisov baş məşqçi təyin olunduqdan sonra serb mütəxəssisi məşqçilər korpusuna dəvət edib.



# "Barselona" evdə minimal hesabla qalib gəldi

***İspaniya La Liqasında VII turun oyunları davam edir.***

"Unikal" xəbər verir ki, çempionluq mübarizəsi aparan "Barselona" doğma meydanda "Xetafe"ni qəbul edib. Görüş Kataloniya təmsilçisinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Matçda yeganə qolu 19-cu dəqiqədə Robert Levandovski vurub. "Barselona" hazırda 21 xalla turnir cədvəlinə başçılıq edir.

# "Atletiko" azarkeşlərinin Vinisius planı

***"Atletiko"nun aktiv azarkeşləri La Liqanın 8-ci turunun "Real"la oyunu zamanı etiraz aksiyası keçirməyi planlaşdırırlar.***

QOL.az xəbər verir ki. bu barədə İspaniya mətbuatı məlumat yayıb. Azarkeşlər oyuna birdəfəlik maskalar taxaraq gələcəklər. Onlar şəxsiyyətlərinin müəyyən edilməməsi və "kral klubu"nun hücumçusu Vinisiusu təhqir edə bilmək üçün belə addım atmaq qərarına gəliblər. Azarkeşlər fəal şəkildə futbolçuya qarşı irqçi ifadələr yayırlar və sosial şəbəkələrdə digər "Atletiko" azarkeşlərini də onların aksiyasına qoşulmağa çağırırlar.

Vinisius mütəmadi olaraq digər klubların azarkeşləri tərəfindən təhqirlərlə üzləşir. Sentyabrda futbolçu İspaniyanın irqçiliklə bağlı böyük problemləri olduğunu deyərək, 2030-cu il dünya çempionatına ev sahibliyi hüququnun ölkədən alınmasına çağırıb.

Qeyd edək ki, "Atletiko" - "Real" matçı 29 sentyabrda Madriddə keçiriləcək. OyunBakı vaxtı ilə saat 23.00-da başlayacaq.






# "Bura "Kəpəz"ə kömək etməyə gəlmişəm"

***"Azərbaycanda qaldığım, Gəncəyə gəldiyim üçün xoşbəxtəm. "Kəpəz" ölkənizdə ənənəvi, köklü klubdur".***

QOL.az xəbər verir ki, bu sözləri "Kəpəz"in yeni transferi Paçu Lira klubun mətbuat xidmətinə açıqlamasında deyib.

28 yaşlı hücumçu Gəncədə onu yaxşı qarşıladıqlarını bildirib: "Mənə qarşı münasibət xoşdur. Eləcə də digər futbolçulara qarşı klubda səmimi ab-havanı hiss edirəm. Bir neçə gündür ki, komanda ilə birlikdə məşqlərə çıxıram. Artıq çalışmaq vaxtıdır. Öz üzərimdə işləyirəm, nəyə qadir olduğumu göstərməyə çalışıram".

Braziliyalı forvard əsas heyətə düşmək üçün əlindən gələni edəcəyini vurğulayıb. Bunun üçün mübarizəyə hazır olduğunu söyləyib: "Hücum xəttində məşqçilərin seçim etmək imkanı var. Mən də özümü ən yaxşı tərəfdən göstərməklə heyətdə yer almaq istəyirəm. Fiziki vəziyyətimi yaxşılaşdırmaq üçün çalışıram. Mümkün qədər tez optimal formama qayıtmaq istəyirəm. Bura "Kəpəz"ə kömək etməyə gəlmişəm".

Paçu komandanın düşdüyü vəziyyətdən çıxartmaq üçün hamının səfərbər olduğunu da əlavə edib: "Hamımız bir olmalıyıq ki, bu durumdan çıxa bilək. Komandada birlik var. Vəziyyəti yaxşılaşdırmaq biz futbolçulardan asılıdır. Bunun üçün çox çalışacağıq. Bir uğurlu nəticə hər şeyi dəyişəcək".

Qeyd edək ki, "Kəpəz" Paçu ilə cari mövsümün sonunadək müqavilə imzalayıb.

# Peres Ançelotti ilə bağlı qərar verdi

***"Real"ın prezidenti Florentino Peres klubun baş məşqçisi Karlo Ançelottiyə yeni uzunmüddətli müqavilə təklif etməyi planlaşdırır.***

QOL.az xəbər verir ki, buu barədə "AS" nəşri məlumat yayıb. Bildirilir ki, Peres kluba ikinci gəlişində kuboklar qazanmağa davam edən və əməkdaşlığı daha sərfəli şərtlərlə qəbul etməyə hazır olan Ançelottinin işindən məmnundur.

Qeyd edək ki, italiyalı mütəxəssisin Madrid klubu ilə hazırkı müqaviləsi 2026-cı ilin yayına kimi nəzərdə tutulub.

# Britaniyada Qurban Qurbanova qiymətli hədiyyə verildi

***Britaniya Azərbaycanlıları Assosiasiyası "Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanova Azərbaycan futbolunun dünyada tanıdılmasındakı müstəsna xidmətlərinə görə hədiyyə təqdim edib.***

Bu barədə adı çəkilən qurumdan bildkirilib. Britaniya Azərbaycanlıları Assosiasiyası sədri Hafiz Baxşəliyev məşqçiyə Londonda yaşayan azərbaycanlı rəssam Gülnarə Abilovanın çəkdiyi rəsmi təqdim edib. Bu, Qurban Qurbanovun özünün portretidir.

Qeyd edək ki, UEFA Avropa Liqasının Liqa mərhələsində çıxış edən "Qarabağ" klubu bu gün səfərdə ilk oyununa çıxacaq.

Komandamız Londonda "Tettenhem"in qonağı olacaq. Matç Bakı vaxtı ilə saat 23:00-da başlayacaq. Oyunu Fransadan olan hakimlər briqadası idarə edəcək.